TİPİİ
Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu

# Azkomplektli siniflərdə tədrisin təşkili

## Mündəricat


1. **Azkomplektli siniflərin xüsusiyyətləri.............................................................4**
   - *1.1. Azkomplektli siniflərə ehtiyacı yaradan səbəblər.................................4*
   - *1.2. Azkomplektli siniflərin üstünlükləri......................................................4*
   - *1.3. Adi və azkomplektli sinif.........................................................................5*
   - *1.4. Azkomplektli siniflərdə iş zamanı diqqət yetirilməli məqamlar...........6*
2. **Azkomplektli siniflərdə təlim strategiyaları.....................................................7**
   - *2.1. Təlim strategiyasını seçərkən nəzərə alınan faktorlar..........................7*
   - *2.2. Diferensial təlim.........................................................................................7*
   - *2.3. Müvafiq üsul və iş formaları..................................................................10*
3. **Azkomplektli siniflərdə dərsin standartlar əsasında təşkili............................14**
   - *3.1. Standartların qruplaşdırılması (şaquli inteqrasiya).............................14*
   - *3.2. Şaquli inteqrasiyanın imkanları...........................................................14*
4. **Azkomplektli siniflərdə dərs cədvəli və planlaşdırma...................................16**
   - *4.1. Dərs cədvəlini tərtib edərkən nəzərə alınmalı faktorlar.......................16*
   - *4.2. Dərs cədvəlinə yanaşmalar..................................................................17*
5. **Azkomplektli sinifdə öyrədici (inkişafetdirici) mühitin qurulması. İnklüziv sinif.........................................................................................................................18**
   - *5.1. Öyrədici (inkişafetdirici) mühitin növləri: sosial-psixoloji, əşyəvi, informasiya mühiti..........................................................................................................................18*
   - *5.2. Sinifdə mərkəzlərin qurulması.............................................................19*
   - *5.3. Azkomplektli siniflərdə inklüziv təhsil..................................................20*
6. **Qruplarla işin təşkili.........................................................................................20**
   - *6.1. Qrup tapşırıqları və onlara verilən tələblər...........................................20*
   - *6.2. Müstəqil işlər və onların əhəmiyyəti......................................................23*
7. **Tədris və təlim materiallarının hazırlanması...................................................24**
   - *7.1. İş vərəqlərinin hazırlanması..................................................................25*
8. **Azkomplektli siniflərdə qiymətləndirmənin təşkili..........................................26**
   - *8.1. Diaqnostik qiymətləndirmənin təşkili....................................................26*
   - *8.2. Formativ qiymətləndirmə və onun xüsusiyyətləri. Səmərəli əks-əlaqə...26*
   - *8.3. Azkomplektli siniflərdə summativ qiymətləndirmə................................28*
9. **Azkomplektli sinfin idarəedilməsi..................................................................29**

*9.1. Liderlik üslubları....................................................................................30*
*9.2. İdarəetmə problemlərinin qarşısının alınması.........................................31*
*9.3. Davranış problemlərinin qarşısının alınması...........................................34*
**10. Sinifdaxili ünsiyyət: maneələr və onların aradan qaldırılması......................35**
*10.1. Konfliktlər və onların həlli.......................................................................35*
*10.2. Səmərəli ünsiyyət vərdişləri...................................................................36*
*10.3. Müəllim-şagird, müəllim-valideyn əməkdaşlığı.....................................37*
*10.4. Şagirdlər arasında əməkdaşlıq..............................................................38*
**Ədəbiyat siyahısı..........................................................................................39**

## Mövzu 1. Azkomplektli siniflərin xüsusiyyətləri

### *Azkomplektli siniflərə ehtiyacı yaradan səbəblər*

Azkomplektli siniflərə ucqar və əhalinin seyrək məskunlaşdığı ərazilərdə rast gəlinir. Bu ərazilərdə müəllim və şagirdlər çox olmur, buna görə də bir sinif müxtəlif yaş və sinif səviyyəsində olan şagirdləri əhatə edir. Bu şagirdlər vahid bir sinifdə təhsil alır və müxtəlif sinif səviyyələrində olsalar da, dərs bir müəllim tərəfindən keçilir. Məsələn, bir sinifdə həm 1 və 2-ci, həm də 3 və 4-cü sinif şagirdləri ola bilər.

Azkomplektli siniflərə nəinki inkişafda olan ölkələrdə, o cümlədən dünyanın inkişaf etmiş ölkələrində də rast gəlinir. Peru, Şri Lanka, Norveç, Vyetnam, İngiltərə, Fransa, Hindistan, Amerika, Yeni Zellandiya, Kolumbiya və s. ölkələrdə azkomplektli sinif nümunələrini görmək mümkündür. Bu siniflərə ehtiyacı yaradan səbəblər müxtəlifdir.

Çox hallarda azkomplektli siniflərin yaradılması seçim yox, vəziyyətin tələbidir: *mövcud olan kəskin sosial-iqtisadi məhdudiyyətlər, demoqrafik vəziyyət, sinif otağı, lazımi resurs və müəllim çatışmazlığı* və s. Azkomplektli siniflərin yaranmasına *coğrafi faktorla* yanaşı, *əhalinin düşüncə səviyyəsi* də təsir edir. Belə ki, bəzi ölkələrdə uşaq əməyindən gündəlik ev işlərində və kənd təsərrüfatında istifadə olunduğuna görə onların təhsil hüququ məhdudlaşdırılır.

### *Azkomplektli siniflərin üstünlükləri*

Bir çox təhsil mütəxəssisləri, müəllimlər və hətta valideynlər düşünürlər ki, azkomplektli sinif aşağı səviyyəli təhsil sistemlərinin seçimidir və daha çox sinif otağı tikməklə, daha çox müəllim işə götürməklə və ya kiçik məktəbləri bağlamaqla, uşaqları isə daha uzaq məsafələrdə olan məktəblərə getməyə məcbur etməklə bu vəziyyət mümkün qədər tez bir zamanda aradan qaldırılmalıdır. Buna baxmayaraq, təkcə Cənub-Şərqi Asiyada deyil, Avropanın, Şimali Amerikanın və Avstraliyanın bir çox yerlərində azkomplektli sinif təhsilin təşkilində ilkin seçimdir. Belə ki,

- xüsusilə ucqar və təcrid olunmuş ərazilərdə yaşayan uşaqların təhsil hüquqlarınından yararlanmalarına və təhsil ehtiyaclarının ödənilməsinə kömək edir.
- müxtəlif səviyyələrdə olan uşaqları həmyaşıdlarının köməyi ilə öyrənməyə həvəsləndirir, nəticədə şagirdləri birliyə, əməkdaşlığa və sağlam rəqabətə təşviq edir, liderlik qabiliyyətlərini və şəxsiyyətlərarası münasibətləri gücləndirir, paylaşmağa müsbət münasibəti inkişaf etdirir.
- azkomplektli sinif müəllimin işini daha yaxşı planlaşdırmasına və vaxtdan daha səmərəli istifadə etməsinə kömək edir.

- azkomplektli sinif otaqlarında tətbiq olunan müxtəlif təlim vasitələri sayəsində şagirdlərin koqnitiv inkişafına töhfə verir.

Bütün bunları nəzərə alaraq azkomplektli sinfin aşağıdakı üstünlüklərini qeyd etmək olar:

- ✓ Tədris fəaliyyətlərinin əlaqəli olması;
- ✓ Valideynləri övladlarının təhsili ilə daha yaxından məşğul olmağa sövq etməsi;
- ✓ Məktəb işlərində cəmiyyətin fəal iştirakı;
- ✓ Böyük və kiçik uşaqlar arasında qarşılıqlı əlaqə və dəstəyə təşviqetmə.

## *Adi və azkomplektli sinif*

Azkomplektli sinifdə tədrisin səmərəliliyi ilə bağlı aparılan tədqiqatlar göstərmişdir ki, əgər düzgün iş aparılarsa, şagirdlər adi sinifdə olduğu kimi və bəzən də daha yaxşı nəticələr əldə edə bilərlər.

Adətən azkomplektli sinif müəllimi bu cür siniflərdə dərs deyəcəyini qabaqcadan bilmir, yaxud ali təhsil aldığı yerdə bununla bağlı xüsusi hazırlıq keçmir. Ona görə də hər bir müəllimdə olması vacib olan keyfiyyətlər azkomplektli sinif müəlliminə də şamil edilir. Bunlar aşağıdakılardır:

1. Tədqiqat aparma (fəal müşahidə əsasında)
2. Nəzarət etmə
3. Planlaşdırma
4. Mütəşəkkillik
5. Asanlaşdırma
6. İdarəetmə
7. Motivasiya
8. Qiymətləndirmə

Həm adi, həm də azkomplektli sinifdə müəllimlər tərəfindən hər bir şagird üçün diqqətdə saxlanılması lazım olan məqamlar da, əsasən, eynilik təşkil edir:

1. Yaşı
2. Bacarıqları
3. İnkişaf səviyyəsi
4. Məktəbəqədər təcrübəsi
5. Motivasiyası
6. Maraqları

Adi və azkomplektli sinfi bir-birindən fərqləndirən xüsusiyyətlərə aşağıdakıları aid edə bilərik:

- ✓ yerləşdiyi ərazi şərtləri;

- ✓ resurslar;
- ✓ sinifdaxili müxtəliflik və s.

### *Azkomplektli siniflərdə iş zamanı diqqət yetirilməli məqamlar*

Hər bir tədris formasının öz çətinlikləri var və azkomplektli sinif müəllimi şagirdlərdən ən yaxşı şəkildə yararlanmaq üçün bəzi məsələləri diqqətdə saxlamalı, çətinlik kimi görünən bu məsələləri "fürsət" kimi dəyərləndirə bilməlidir:

1. *Qrupdaxili və qruplararası müxtəliflik*

Müxtəlif ailə mənşəli, sosial-iqtisadi vəziyyətləri və müxtəlif bacarıq səviyyələri (məktəbəqədər təcrübəsi olan və olmayan) olan şagirdlərlə bir sinifdə işləmək kifayət qədər çətindir. Bunun üçün yalnız ixtisaslaşmış biliklər və tədris-təlim metodları deyil, həm də sinifdəki müxtəlifliyi qəbul edən və buna hörmət edə bilən müəllim tələb olunur. Ancaq vacib məqam odur ki, bu cür müxtəliflik çətinlik olaraq deyil, bütün şagirdlərə daha keyfiyyətli təhsil vermək üçün bir fürsət olaraq görülməlidir.

2. *Az vaxtda çox iş*

İstər qrup, istərsə də fərdi şagirdlərin öyrənmə tələbatlarının müxtəlifliyi baxımından vaxtı səmərəli şəkildə tənzimləmək, əlbəttə ki, çətin işdir, lakin bütün qrupun komplektləşdirilmiş bir mühitdə birləşməsini təmin edən müxtəlif fəaliyyətləri hazırlamaqla yeni və daha keyfiyyətli təlim üsullarını inkişaf etdirmək olar.

3. *Şagirdləri vahid işə cəlb etmək və onları öyrənməyə fokuslamaq*

Komplektləşdirilmiş sinif müəlliminin vəzifələri şagirdləri bir, yaxud bir neçə fəaliyyətə cəlb etmək üçün yaradılan fəaliyyət zonasından asılıdır. Bu cür fəaliyyətlər həm mənalı, həm də kifayət qədər cəlbedici olmalıdır ki, fərqli siniflər eyni otaqda, eyni vaxtda müxtəlif fəaliyyətlər apararkən heç bir şey şagirdlərin fikrini yayındırmasın. Müəllim həm də bütün şagirdlərin məşğul ola biləcəyi və bir-birinə kömək edəcəyi fəaliyyətləri inkişaf etdirməlidir. Buradakı vacib məqam müəllimin şagirdləri onlar üçün maraqlı olacaq fəaliyyətə yönəltmək bacarığının olmasıdır.

4. *Azkomplekli sinif müəllimisinizsə, tədricolunma haqqında düşünməyin*

Komplektləşdirilmiş məktəblər bir qayda olaraq coğrafi baxımdan ucqar yerlərdə olduğuna görə azkomplektli sinif müəllimi özünü təcrid olunmuş hiss edə bilər. Bu da digər məktəblərdə və daha geniş şəkildə isə təhsil sistemindəki ən yaxşı təcrübə və inkişaflardan xəbərdar olmanı çətinləşdirir. Lakin mövcud şərtlər bu təcridi aradan qaldırmağın innovativ yollarını tapmağı zəruri edir. Eyni coğrafi bölgədə yerləşən oxşar qrup məktəblər müntəzəm və tez-tez görüşlər təşkil etmək üçün ortaq bir qrup yarada bilər. İctimai əsaslı qurumlar və digər bu kimi təşkilatlarla əlaqə və əməkdaşlıqlar da məktəbdə tədrisin yaxşılaşdırılmasında rol oynaya bilər.

# Mövzu 2. Azkomplektli siniflərdə təlim strategiyaları

## *Təlim strategiyasını seçərkən nəzərə alınan faktorlar*

Müəllimlərin əsas məqsədi şagirdlərə öyrənməyə kömək etməkdir. Öyrənənlər isə müxtəlif olduğu kimi, onların öyrənmə yolları da müxtəlifdir. Bəs niyə hər uşaq fərqli şəkildə öyrənir? Buna təsir edən amillər arasında aşağıdakıları sadalamaq mümkündür:

- ✓ anadangəlmə potensialı və imkanları;
- ✓ sağlamlıq və qidalanma vəziyyəti;
- ✓ ailənin iqtisadi vəziyyəti;
- ✓ xüsusi təhsil ehtiyacları;
- ✓ dil qabiliyyəti;
- ✓ valideynlərin təhsil səviyyəsi;
- ✓ cinsi;
- ✓ maraqları;
- ✓ yaşı və s.

Buna görə də müəllimlər öyrənənlərin ehtiyacını ödəmək üçün müxtəlif metodlardan istifadə edirlər. Bunlar təlim strategiyaları adlanır. Müəllimlər gündəlik tədris prosesində müxtəlif təlim strategiyalarından istifadə edirlər. Bəziləri bu strategiyaların müxtəlifliyindən xəbərdardırlar, bəziləri isə yox. Müəllim bu strategiyalardan yetərincə xəbərdar olmalıdır ki, bu və digər mövzuya, yaxud vəziyyətə uyğun olanından istifadə edə bilsin. Çünki bir strategiya bir qrup şagirdlər üçün səmərəli olsa da, digərləri üçün eyni dərəcədə səmərəli olmaya bilər.

Azkomplektli sinifdə təlim strategiyalarını seçərkən aşağıdakı faktorlar nəzərə alınmalıdır:

- ✓ mövzu;
- ✓ hər sinif səviyyəsinə görə şagird sayı;
- ✓ öyrənənlərin bacarıqlarının müxtəlifliyi;
- ✓ öyrənənlərin yaşı;
- ✓ resurslar, öyrətmə vasitələri;
- ✓ öyrənənlərin seçilmiş strategiyaya münasibəti;
- ✓ sinifdə birləşmiş sinif səviyyələri (bir sinifdə 1 və 3, yaxud 2 və 4-cü siniflərin olması) və s.

## *Diferensial təlim*

Fərqli qabiliyyət və maraqlara, eləcə də öyrənmə xüsusiyyətlərinə malik şagirdlərə eyni anlayış və bacarıqları səmərəli yolla öyrətmək, ən əsası isə real sinif otağında, dərs üçün

ayrılmış məhdud vaxt çərçivəsində bunun öhdəsindən gəlmək üçün təlimi diferensial yanaşma üzərində qurmaq tövsiyə edilir. Bu zaman fərdi xüsusiyyətlərindən, hazırlıq səviyyəsindən asılı olaraq şagirdlər proqram materiallarını müxtəlif dərinlikdə öyrənəcək və bütün uşaqlar dərs zamanı təlim prosesinə cəlb olunacaqlar. Məhz buna görə də tədris zamanı, xüsusilə də yeni material təqdim olunarkən əyani vasitələrdən istifadəyə geniş yer verilməlidir. Məsələn, sxemlər, rəsmlər, plakatlar, mövzunu əks etdirən kartlar və s.

Diferensiasiyanın 2 növü var:

1. *Xarici diferensiasiya* – xüsusi məktəblərin, siniflərin və məktəbdaxili idraki və bədii dərnəklərin yaradılması nəzərdə tutulur.
2. *Daxili diferensiasiya* – sinifdaxili işin təşkili nəzərdə tutulur.

Sinifdaxili diferensiasiyanın (daxili diferensiasiya) aşağıdakı mərhələləri vardır:

1. Qrupların yaradılması üçün meyarların müəyyənləşdirilməsi.
2. Seçilmiş meyarlar əsasında diaqnostikanın aparılması (daha dəqiq məlumatı müxtəlif səviyyəli yoxlama işləri təmin edir).
3. Diaqnostikaya əsasən şagirdlərin qruplara ayrılması.
4. Diferensiasiya üsullarının müəyyənləşdirilməsi, diferensial tapşırıqların hazırlanması.
5. Dərsin müəyyən mərhələlərində diferensial yanaşmanın həyata keçirilməsi.
6. Nəticələrə diaqnostik nəzarət. Bunun əsasında qrupların tərkibi, diferensial tapşırıqların xarakteri dəyişə bilər.

**Nümunə:** Sinfi 3 qrupa bölərək hər bir qrupla fərdi iş aparmaq olar (qrup üzvlərinin sayı və tərkibi dəyişə bilər). Dərs zamanı iş 6-8 nəfərdən ibarət kiçik qruplarda aparılır. Dərsdə hər qrup müəllimlə 7-10 dəqiqə işləyir. Bu, səmərəli və intensiv iş üçün optimal müddətdir. Beləliklə, 45 dəqiqə müddətində hər qrup müəllimlə işləyə bilir, yəni müəllim hər bir uşağa diqqət yetirir.

Bu üsulun üstünlüyü ondan ibarətdir ki, müəllim öz diqqətini uşaqlar arasında bərabər paylaya bilir. Müəllim növbəti qrupla işlədiyi müddətdə digər qruplar tapşırığı müstəqil yerinə yetirir. Diferensiasiya əlavə çətinlik yaratmır və yeni materialın ötürülməsinin, öyrənilməsinin, tapşırığın sayının, işin sürətinin və s. xarakterini dəyişməyə imkan verir. Bu üsul hər bir uşağın funksional vəziyyətini, işləmə bacarığını, yorğunluğunu nəzərə alır və lazım gələrsə, dərs zamanı dincəlmək, vəziyyəti dəyişmək, səmərəli idman dəqiqələri keçirtmək, gərginliyi azaltmaq üçün şərait yaradır. Diferensiasiyanın digər üstünlüyü odur ki, şagirdlərdə müstəqil iş bacarığı inkişaf edir və daha çox diqqətə ehtiyacı olan şagirdlərə əlavə vaxt ayırmağa imkan yaradır. Müşahidələr göstərir ki, şagirdlər müəllimlə "təkbətək" işləməyə, öz suallarını verməyə, izahını almağa üstünlük verirlər.

Diferensiasiyanı aşağıdakı üsullarla həyata keçirmək olar:

1. Yaradıcılıq səviyyəsinə görə:

   - *qeyri-yaradıcı tapşırıqlarla:* nümunə üzərində iş, faktoloji sualların cavablandırılması, misal həlli və s.

   - *yaradıcı tapşırıqlarla*: esse yazmaq, təxəyyülə əsaslanan şəkil çəkmək, rollu oyunda iştirak və s.

2. Çətinlik səviyyəsinə görə;
3. Həcminə görə (mövzuya uyğun əlavə tapşırıqlar təklif oluna bilər);

4. Müstəqillik səviyyəsinə görə (uşaqların bəziləri müəllimin köməyi və nəzarəti altında, digərləri isə müstəqil şəkildə eyni tapşırığı yerinə yetirir);

5. Şagirdlərə göstərilən köməyin xarakterinə görə (bütün uşaqlar eyni vaxtda işə başlayırlar və köməyə ehtiyacı olan şagirdlərə köməkçi kartlar, asan, lakin oxşar tapşırıqların verilməsi, yazı taxtasında qeydlər və s. yollarla dəstək göstərilir).

Yeni mövzunun keçirilməsi zamanı şagirdlər arasında öyrənmə bacarıqları və zehni qabiliyyətlərinə görə fərqi nəzərə almaq lazımdır. Yeni materialın təqdimatı zamanı mümkün qədər müxtəlif analizatorlara (görmə, eşitmə, hərəkət və s.) istiqamətlənmək vacibdir, belə ki, bu, yaddasaxlama və anlamaya müsbət təsir göstərir. Yeni materialın "zəif" şagird tərəfindən mənimsənilməsinə daha çox vaxt ayrılmalıdır, "güclü" şagirdlərə isə dərhal müstəqil tapşırıqlar verilə bilər.

Diferensiasiya tətbiqetmə mərhələsində də vacibdir. Tətbiqetmə mərhələsində öyrənməni elə təşkil etmək lazımdır ki, hər bir uşaq öz imkanları çərçivəsində hər dərs öyrənmə uğurunu hiss etsin və əldə etdiyi bacarıqları təcrübədə istifadə edə bilsin. Tətbiqetmə mərhələsində diferensial yanaşmanın didaktik əsasını tapşırıqlar sisteminin seçimi təşkil edir. Bu cür tapşırıqlar sistemi aşağıdakıları özündə birləşdirir:

1. Məcburi səviyyəli tapşırıqlar (zəif və orta səviyyəli şagirdləri əhatə edən);
2. Tipik səhvlərin qarşısını almaq üçün tapşırıqlar;
3. Yüksək çətinlik səviyyəsi olan tapşırıqlar (güclü şagirdlər üçün).

Şagirdin fəaliyyətinin nəzarət və qiymətləndirməsi yalnız dinamikada, yəni əvvəl əldə etdiyi biliklərlə müqayisəli şəkildə aparılır və heç bir halda uşaqları bir-biri ilə müqayisə etməyi nəzərdə tutmur. Nəzarət və qiymətləndirmənin əsas funksiyası öyrənmə fəaliyyətinin yerinə yetirilməsinin gedişini izləmək, səhvləri vaxtında müəyyən etməkdir. Qiymətləndirmə zamanı uşaqlarda yaranan stresi minimuma endirmək vacibdir. Sinifdə abu-hava sakit və pozitiv olmalıdır. Müstəqil iş zamanı yaranan səhvlər tamamlanmaq və aradan qaldırılmaq üçün işarə olunmalıdır. Beləliklə, diferensial təlim hər bir şagirdin maraq və qabiliyyətlərinə istinad edərək, onun bilik və bacarıqlarının dərinləşməsinə və genişlənməsinə şərait yaradır, geriləməsini aradan qaldırır.

Daha ətraflı: http://www.tipii.edu.az/az/article/554-diferensial-talim-haqqinda

## *Müvafiq üsul və iş formaları*

Azkomplektli sinifdə müxtəlif fəaliyyətlər sinxron, yəni eyni vaxtda həyata keçirilir. Buna görə də şagirdlərin vahid bir iş ətrafında birləşə bilməsi üçün sinif otağının təşkili elə olmalıdır ki, onların diqqəti hədəfdən yayınmasın, hərəkət və müşahidə üçün əlverişli olsun. Müəllimin məsuliyyəti müxtəlif qrupların formalaşdırılmasında xüsusən əhəmiyyətlidir; bu, çox vaxt konkret bir zamanda keçilən mövzunun xarakterindən və məqsədindən asılıdır. Bəzi mövzular müxtəlif səviyyəli qruplarla, bəziləri isə bütöv sinifdən təşkil olunmuş qruplarla daha faydalı ola bilər; bəziləri həmyaşıdlarının dəstəyinə ehtiyac duya bilər; bəziləri isə müəllimin və həmyaşıdlarının məqsədyönlü dəstəyilə müstəqil tapşırıqlar və uşaqyönümlü öyrənmə ilə kifayətlənə bilər.

Müvafiq üsul və iş formalarını seçərkən nəzərə alınır:

- ✓ hər sinif səviyyəsinə görə şagird sayı;
- ✓ öyrənənlərin bacarıqlarının müxtəlifliyi;
- ✓ öyrənənlərin yaşı;
- ✓ resurslar və öyrənmə vasitələri və s.

Azkomplektli sinifdə səmərəli nəticə verən müvafiq üsul və iş formalarından aşağıdakıları istifadə edə bilərsiniz:

1. Qrup işi;
2. Həmyaşıd “müəllim”;
3. Rollarla oyun;
4. Layihə yanaşması və s.

Qrup işində qrupların yaradılması prosesi başlıca olaraq iki yanaşmaya əsaslanır:

- şagirdlərin məqsədyönlü şəkildə yaşına, sinif səviyyəsinə, bacarıqlarına görə qruplaşdırılması;
- müxtəlif biliklərə sahib şagirdlərin qruplaşdırılması.

Tədris etdiyiniz fəndən asılı olaraq qruplar müxtəlif yollarla yaradıla bilər:

- ➢ *Müxtəlif bacarıqlı qruplar*: zəif və tez öyrənənlər bir qrupda birləşdirilir.
- ➢ *Bərabər bacarıqlı qruplar*: öyrənənlər az, yaxud çox dərəcədə eyni səviyyəlidirlər.
- ➢ *Gender qruplar*: oğlanlar və qızlar ayrı-ayrı qruplarda birləşdirilir.
- ➢ *Maraq qrupları*: bütün qrup üzvləri bir mövzuya eyni maraq nümayiş etdirirlər.
- ➢ *Həmyaşıd qruplar*: birlikdə işləmək işləyən şagirdlər bir qrupda toplanır.
- ➢ *Təsadüfi qruplar*: Şagirdlər xüsusi bir qayda olmadan təsadüfi şəkildə qruplarda birləşdirilir.

➢ *Cüt qruplaşma*: iki şagird birlikdə işləyir.

Dərsdə yarana biləcək boşluq və ya sıxıcılığın qarşısını almaq üçün müəllim mümkün qədər çox sayda dərsə uyğun qrup işləri hazırlamalıdır. O cümlədən qrup üzvlərinə müvafiq vəzifələr təyin edilə bilər. Beləliklə, qrup fəaliyyəti sayəsində şagirdin müəyyən bacarıqları inkişaf etdirilə bilər. Məsələn:

- ✓ Qrup lideri – liderlik bacarıqlarını inkişaf etdirə bilər.
- ✓ Katib – yazı bacarıqlarını inkişaf etdirə bilər.
- ✓ Vaxt nəzarətçisi – zamanı tənzimləməkdə daha çox məlumatlı olar və inkişaf edə bilər.

Bu vəzifələr şagirdlər arasında bölüşdürülməlidir ki, hamısı fərqli işlərlə məşğul olmaq və bacarıqlarını inkişaf etdirmək imkanı əldə etsinlər.

Qrup işinin şagirdlər üçün həm müsbət, həm də mənfi cəhətləri var.

Müsbət cəhətlər:

- ✓ şagirdlər bacarıqlarını bölüşərək əməkdaşlıq edirlər;
- ✓ resurslar qruplar arasında mübadilə edilir;
- ✓ şagirdlər özünəinam və müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirə bilir;
- ✓ qrup işi hamını iştiraka sövq edir;
- ✓ qrup işi şagirdlərarası fərqləri görməyə imkan verir;
- ✓ müəllim əlavə diqqətə ehtiyacı olan şagirdlərlə işləyə bilir.

Mənfi cəhələr:

- ✓ bəzi şagirdlər öyrənmə çətinliyi olan uşağın qrup daxilində fəaliyyətini məhdudlaşdıra bilər;
- ✓ bəzi şagirdlər qrupda dominantlıq təşkil edə bilər;
- ✓ utancaq olanlar qrup işindən kənarda qala bilər.

Bu cür problemləri vaxtında aşkar etmək və aradan qaldırmaq üçün qrupları diqqətlə izləmək lazımdır.

Həmyaşıd "müəllim" şagirdlərin eyni və ya fərqli sinif səviyyələrində olan digər şagirdlərə müəllim və ya rəhbər kimi yanaşmasıdır. Yaşca böyük və ya daha çox bacarıqlara sahib uşaqlar tez-tez digər şagirdlərə dərs müddətində kömək edə bilər. Həmyaşıdlarından öyrənmə çox vaxt səmərəli olur, çünki şagirdlərin qarşılıqlı əlaqə zamanı "öz dilləri" formalaşır. "Müəllimlik" şagirdlərdə özünəinamı inkişaf etdirir. Sinfin idarə edilməsində də bu üsul müəllimə kömək edə bilər. Belə ki, seçilmiş "müəllim" qruplarla fərdi məşğul olduğu zaman müəllim başqa siniflə işləyə bilər.

Müəllim əvvəlcədən:

✓ «müəllim»i dərsə hazırlamalıdır;

✓ ona kömək etməlidir;

✓ onu qiymətləndirməlidir.

Həmyaşıd «müəllim»:

✓ tapşırığı başa düşməlidir;

✓ digər uşaqlarla yaxşı münasibətlər qura bilmək üçün müsbət davranışlarını inkişaf etdirməlidir;

✓ həmyaşıdlarının zəif və güclü tərəfləri haqqındakı fikirlərini müəllimlə bölüşməlidir.

Rollarla oyun şagirdlərdə aşağıdakı cədvəldə göstərilən bacarıq və münasibətlərin müxtəlif cəhətlərini inkişaf etdirməyə kömək edir:

| ***Konsepsiya*** | ***Bacarıq*** | ***Münasibət*** |
|---|---|---|
| Hekayənin əsas ideyası | Dinləmək | Növbə gözləmək |
| Hadisələrin ardıcıllığı | Aydın şəkildə danışıq və tələffüz | Başqalarının fikirlərinə hörmət |
| Xarakterlərin əlamətləri | Mimika və jestlər | Paylaşma |
| Sosial məsələlər | Qrupla işləyə bilmək | Səbirli və tolerant olmaq |

Bəzən uşaqlar oxuduqları hadisəni real həyata tətbiq etməyə çətinlik çəkirlər. Buna görə müəllimlər şagirdlərə tələb olunan anlayışları, münasibət və bacarıqları başa düşməkdə kömək etməlidir.

Layihələr elə bir öyrənmə sistemidir ki, bu prosesdə şagird tədricən mürəkkəbləşən praktiki tapşırıqları – layihələri müstəqil planlaşdırıb həyata keçirməklə bilik və bacarıqlar əldə edir. Layihə növlərini ayırmaq üçün 6 əsas meyar təklif edilmişdir:

*1. Layihədə istifadə olunan üsul və ya fəaliyyətə görə:*

- Tədqiqat
- Yaradıcı
- Rollu oyun
- Məlumat xarakterli
- Tətbiqi

*2. Mövzuya görə:*

- Monolayihələr
- Fənlərarası layihələr

*3. Ərazi əlaqəli:*

- Daxili və ya regional
- Beynəlxalq

*4. Layihə iştirakçılarının sayına görə:*

- Fərdi
- Cütlərlə
- Qrupla

*5. Layihənin müddətinə görə:*

- Qısa müddətli
- Orta müddətli
- Uzun müddətli

*6. Nəticələrə görə:*

- Hesabat, albom, kolleksiya, kataloq
- Plan, sxem, plan-xəritə
- Video
- Sərgi və digərləri.

Layihənin həyata keçirilməsində aşağıdakı addımları izləmək olar:

*Planlaşdırma mərhələsi*

- ➢ Şagirdlərə mövzuya aid ideyalar irəli sürmələrinə şərait yaratmaq.
- ➢ İdeyaların dinlənilməsinə üstünlük vermək. Fikirləri xronoloji ardıcıllıqla qeyd etmək.
- ➢ Layihənin bütün şagirdlər üçün tam aydın olduğuna əmin olmaq.

*Hazırlıq mərhələsi*

- ➢ Tələb olunacaq vəsait və resursları müəyyənləşdirmək.
- ➢ Layihədə yerinə yetiriləcək tapşırıqlara görə şagirdləri qruplaşdırmaq.
- ➢ Qrup liderini təyin etmək.

*Təqdimat mərhələsi*

➢ Hər kəsin tapşırıq üzərində işləməyə hazır olduğuna əmin olduqdan sonra təqdimata icazə vermək.

➢ Ehtiyac yaranarsa, kömək etmək.

*Qiymətləndirmə mərhələsi*

➢ Layihə başa çatdıqdan sonra bütün şagirdlərlə müzakirə keçirmək. Əldə edilmiş uğurları və ya yaranan problemləri müəyyənləşdirməyi tapşırmaq.

➢ Həmişə uğurları vurğulamaq və iştirakı zəif olan şagirdləri həvəsləndirmək.

## Mövzu 3. Azkomplektli siniflərdə dərsin standartlar əsasında təşkili

Təhsildə standartlaşdırmanın əsas obyektləri təhsilin strukturu, məzmunu, təhsil yükünün həcmi və şagirdlərin hazırlıq səviyyəsinin müəyyənləşməsidir. Sonralar təhsilin məzmun məsələlərinin, şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsinin təhsil sisteminin inkişafında rolunun artmasını nəzərə alaraq, Azərbaycanda təhsil islahatının həyata keçirilməsi prosesində təhsilin əsasını təşkil edən kurikulum hazırlanıb qəbul edilmişdir. Kurikulum təhsilin məzmun standartlarını, zəruri minimumunu, təhsil alanların hazırlıq səviyyəsinə verilən tələbləri və qiymətləndirmə məsələlərini əhatə edir.

### *Standartların qruplaşdırılması (şaquli inteqrasiya)*

Azkomplektli siniflərdə hər bir sinfə aid olan məzmun standartlarının qruplaşdırılması vacibdir. Bu, əslində şaquli inteqrasiyadır. Bu barədə aşağıda geniş məlumat verilir. Qruplaşdırma aşağıdakı alqoritmlə həyata keçirilir:

1. Uyğun məzmun xətləri üzrə uyğun standartların seçilməsi.
2. Standartları reallaşdırmağa xidmət edən ümumi mövzuları seçmək.
3. Seçilən mövzular üçün bütün siniflərə uyğun çevik cədvəl qurmaq.
4. Dərsliklərdən və əlavə resurslardan istifadə edərək bu mövzularla bağlı dərs planı hazırlamaq:

- ✓ Dərs planına uyğun fəaliyyətlər seçmək;
- ✓ Fərdi və ya qrup işləri üçün müvafiq iş vərəqləri hazırlamaq;
- ✓ Anlayışları şagirdlərin gündəlik həyatından götürülmüş misallarla əlaqələndirmək;
- ✓ Şagirdlərin dərsin məzmununu mənimsəmə səviyyələrini yoxlamaq üçün suallar hazırlamaq.

### *Şaquli inteqrasiyanın imkanları*

Məlumdur ki, *təlimdə inteqrasiya* uşaqların təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, təlimin məzmun komponentləri arasında struktur əlaqələr qurmaqla onları sistemləşdirmək deməkdir. İnteqrasiyanın *fənlərarası* və *fəndaxili* olmaqla iki növü ayrılır.

- ***Fənlərarası inteqrasiya*** bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

- ***Fəndaxili inteqrasiya*** müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Belə səviyyədə inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsi də hesab etmək olar. Bu isə son nəticədə fənnin məzmununun strukturunun dəyişdirilməsinə gətirib çıxarır. Bu mənada inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarıqları formalaşdırmalarına kömək edir. İbtidai təhsil pilləsi fənlərinin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş daha xarakterikdir. Fəndaxili inteqrasiya bir fənnin məzmun xətləri üzrə ayrı-ayrı siniflərdə tələb olunan bilik və bacarıqların əlaqələndirilməsidir. Fəndaxili inteqrasiya üfüqi və şaquli olmaqla iki yerə ayrılır.

1. ***Üfüqi inteqrasiya*** bir mövzu (material) daxilində müxtəlif məzmun standartlarının əlaqəsi deməkdir.
2. ***Şaquli inteqrasiya*** isə standantların siniflər üzrə əlaqələndirilməsidir və bəzən siniflərarası inteqrasiya da adlandırılır.

Fəndaxili inteqrasiyanın ***şaquli sementi*** azkomplektli sinifdə işləmək üçün idealdır.

Məsələn, siz 2 və 4-cü siniflərdən ibarət azkomplektli sinifdə Azərbaycan dili kurikulumunun “Oxu” məzmun xətti üzrə “2.1.1. ***Mətndə rast gəldiyi yeni əşya və hadisələrin adlarını müvafiq məna qrupuna aid edir.”*** (II sinif) və “2.1.1. ***Mətndəki hadisələri həyat hadisələri ilə müqayisə edir.”*** (IVsinif) standartları əsasında şaquli inteqrasiya qura bilərsiniz. Eyni mətndə II sinif şagirdləri yeni əşya və hadisələri müvafiq məna qrupuna əlavə edir,  IV sinif şagirdləri isə həmin əşya və hadisələri həyat hadisələri ilə müqayisə edəcək. Şagirdlərin səviyyəsi təxminən yaxındırsa, eyni mətnlə işləmək mümkündür. Güclü fərq hiss edirsinizsə, mətnləri müxtəlif səviyyəli seçə bilərsiniz.

Başlanğıc olaraq konkret bir fənnə və ya sinif səviyyələrinə deyil, bir mövzuya fokuslana bilərsiniz. Bunu bütün sinfin fəaliyyət mərkəzinə çevirməklə və mümkün qədər çox sayda fərqli öyrənmə sahələri ilə əlaqələndirməklə inteqrasiya olunmuş bölmənin tədrisinin səmərəliliyini təmin edə bilərsiniz. Buna görə də hər mövzuya aid materiallar ilə yaxından tanış olmaq üçün vaxt ayırmaq lazımdır. Dərslərin planlaşdırılması və tədrisin hər bir bölməsinə uyğun öyrətmə və öyrənmə materiallarını ardıcıl şəkildə hazırlamaq da vacibdir.

## Mövzu 4. Azkomplektli siniflərdə dərs cədvəli və planlaşdırma

### *Dərs cədvəlini tərtib edərkən nəzərə alınmalı faktorlar*

Azkomplektli siniflərdə ***dərs cədvəli*** və ***planlaşdırma*** ilə bağlı müəllimlər bir sıra problemlərlə üzləşirlər, çünki bir neçə sinif səviyyələrini bir sinifdə birləşdirmək bəzi çətinliklər yaradır. Bu baxımdan öyrənənlər üçün tədris imkanlarının ən yaxşı şəkildə təmin edilməsi məqsədilə dərs prosesində həm müəllim, həm hə şagirdlər tərəfindən təhsil imkanları bölüşdürülməlidir. Dərs cədvəli hər bir dərs gününün necə sərf edilməsini göstərir. Dərs prosesinin rahat və axıcı getməsində onun rolu böyükdür.

***Dərs cədvəlini*** tərtib edərkən nəzərə alınmalı bəzi məsələlər vardır:

- ✓ fənlərin tədris qanunauyğunluğu (məsələn, ilk dərsə fiziki tərbiyənin uyğun olmaması);
- ✓ hər mövzuya ayırdığınız vaxt;
- ✓ inteqrasiya etdiyiniz mövzular;
- ✓ əyani vəsait və resurslar;
- ✓ hər vəziyyətə uyğunlaşdırıla bilən planlaşdırma.

Bu qeyd edilənlərdən başqa faktorlar da ola bilər. Ancaq yuxarıda qeyd edilən başlıca faktorlar dərs günü üçün uyğun cədvəli qurmaqda əsasdır.

***Planlaşdırma*** isə müəllimə dərsi və mövcud vaxtı daha yaxşı idarə etməyə kömək edir. Planlaşdırma çətin ola bilər, bu da onu daha vacib edir. Hər dərsdə isə müəllim planı elə qurmalıdır ki, onu şagirdlərin öyrənmə ehtiyaclarına uyğunlaşdıra bilsin. Azkomplektli sinif üçün dərsin planlaşdırılması *hansı siniflərin birləşdirilməsindən asılıdır.* Ancaq hər günə görə olan dərs planının tələbindən asılı olmayaraq dərsin planlaşdırılmasının üç mərhələsi var:

1. *Dərsdən əvvəl fəaliyyətlərin planlaşdırılması* – dərs planının təkmilləşdirilməsi, təqdimetmə üsullarının seçilməsi, dərs zamanı istifadə ediləcək materialların, iş vərəqlərinin hazırlanması və əgər varsa, həmyaşıdlarına kömək üçün seçdiyiniz şagirdlərə tapşırıq verilməsi.
2. *Dərs müddətində fəaliyyətlərin planlaşdırılması* – əsas materialın bütün şagirdlərə çatdırılması, qrup işinə nəzarət edilməsi və/və ya sinifdəki hər bir şagirdin fərdi işinə nəzarət edilməsi.
3. *Dərsdən sonra fəaliyyətlərin planlaşdırılması* – dərs planının qiymətləndirilməsi və "zəif" şagirdlər üçün səmərəli olacaq metodların düşünülməsi. Dərsdə nəyin yaxşı və nəyin pis

olması barədə refleksiya aparmaq növbəti dərslərdə daha yaxşı nəticələr əldə etməyə kömək edəcəkdir.

Həmçinin fəal dərsin planlaşdırılması zamanı müəllim əvvəlcədən:

- ✓ dərsin gözlənilən nəticələrini müəyyən etməli;
- ✓ dərsin motivasiyasını hazırlamalı (problemli situasiyanın yaradılması, motivasiya növünün seçilməsi, tədqiqat sualının düzgün qoyulması);
- ✓ tədqiqat metodlarını müəyyənləşdirməli;
- ✓ müzakirə zamanı istifadə olunan yönəldici suallar tərtib etməli;
- ✓ güman edilən yeni nəticələri nəzərə alaraq, əlavə məlumat, tapşırıqlar hazırlamalı;
- ✓ dərsin hər mərhələsi üçün vaxtı müəyyən etməli;
- ✓ dərsin tətbiqetmə mərhələsi üçün tapşırıqlar hazırlamalı;
- ✓ qiymətləndirmə formasını (üsulunu) seçməli, meyarları müəyyənləşdirməli;
- ✓ dərsdə istifadə olunacaq texniki vasitələri müəyyənləşdirməli.

### *Dərs cədvəlinə yanaşmalar*

Dərs cədvəlinə yanaşmalar iki cürdür:

1. *Müxtəlif fənn yanaşması* – bütün siniflər göstərilən vaxta uyğun olaraq müxtəlif fənlər üzrə dərslər keçirlər. Bu cür dərs cədvəli hazır və təkmil proqramın olmasını tələb edir. Həmyaşıd "müəllimlər" bu məqamda həm sizin, həm də sinfin işi üçün çox faydalı olacaqdır.

| ***Vaxt*** | ***2-ci sinif*** | ***4-cü sinif*** |
|---|---|---|
| 08:30 – 09:15 | Riyaziyyat | Həyat bilgisi |
| 09:20 – 10:05 | Ana dili | Riyaziyyat |
| 10:10 – 10:55 | Həyat bilgisi | Ana dili |

2. *Eyni fənn yanaşması* – bütün siniflərə eyni vaxt müddətində eyni fənni tədris etməkdir. Lakin yenə də şagirdlər fərqli işlər görürlər. Fərqli səviyyələrdə olsalar da, eyni fənn olduğu üçün bir-birlərinə kömək edə bilirlər. Bu cür cədvəl digər qruplar başqa fəaliyyətlər edərkən müəllimə bir qrupla işləmək imkanı da verir.

| ***Vaxt*** | ***1-ci sinif*** | ***3-cü sinif*** |
|---|---|---|
| 08:30 – 09:15 | Riyaziyyat | Riyaziyyat |
| 09:20 – 10:05 | Ana dili | Ana dili |
| 10:10 – 10:55 | Təsviri incəsənət | Təsviri incəsənət |

## Mövzu 5. Azkomplektli sinifdə öyrədici (inkişafetdirici) mühitin qurulması. İnklüziv sinif

***Öyrədici (inkişafetdirici) mühitin növləri: sosial-psixoloji, əşyəvi, informasiya mühiti***

Təlim mühiti uşaqların təfəkkür, sosial, emosional, fiziki və yaradıcı inkişafına böyük təsir göstərir. Məkanı və zamanı rasional (məqsədəuyğun) təşkil edilmiş, kompleks şəkildə uşaqların inkişafını təmin edən mühit öyrədici (inkişafetdirici) mühitdir. Bu mühitin yaradılması işində 2 əsas prinsip nəzərə alınmalıdır:

- *Uşaqların ətraf mühitdə olan əşyalar və onları əhatə edən insanlarla qarşılıqlı əlaqə quraraq öyrənməsi və biliklər qazanması;*

- *Uşaqların inkişafını və öyrənməsini təmin etmək üçün onların maraqlarının, ehtiyaclarının və güclü tərəflərinin nəzərə alınması.*

Təlimin qarşıya qoyduğu vəzifələrin və prinsiplərin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, məhz öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Uşağı əhatə edən şəraitin onun dərk etmək tələbatına, maraq və problemlərinə nə dərəcədə istiqamətlənmiş olması tədris prosesinə münasibətilə çox əlaqəlidir.

Öyrədici mühitin növləri:

- ✓ *Əşyəvi mühit*
- ✓ *İnformasiya mühiti*
- ✓ *Sosial-psixoloji mühit*

Bu bölgü şərtidir, çünki ətrafdakı müəyyən obyektlər eyni zamanda ayrı-ayrı mühit növlərinin elementləri ola bilər.

***Əşyəvi mühit*** təlimin bütün maddi-texniki təminatını özündə cəmləşdirir. Buraya daxildir:

➢ *Məktəb maddi mühiti* – dərsliklər, lövhələr, didaktik oyunlar və vəsaitlər, əyani vəsaitlər, texniki avadanlıq, laboratoriyalar, məktəb ləvazimatı və s;

➢ *Təbii mühit* – canlı və cansız təbiətin bilavasitə müşahidə oluna bilən əşyaları;

➢ *Məişət mühiti* – evin, yaşayış yerinin maddi əhatəsi, maddi mədəniyyət əşyaları, ictimai və mədəni müəssisələr və s.

***İnformasiya mühiti*** şagirdin təlim ehtiyaclarını təmin etməyə yönəldilmiş məlumat mənbələri (dərsliklər, ensiklopediyalar, KİV, sosial əhatə), sistemli proqram təminatı və məlumat ötürmə vasitələridir.

İnformasiyanı dərk etməyə kömək edən psixoloji amilləri də unutmaq olmaz. Nəzərə almaq lazımdır ki, əgər uşaqlara *oynamaq, təcrübədən keçirmək, əl vurmaq, eşitmək, görmək, hiss etmək* imkanı yaradılırsa, o, hər bir məlumatı mənimsəməyə qadirdir.

***Sosial-psixoloji mühitə*** isə şagirdin həm digər insanlarla, həm də öz daxili aləmi ilə qarşılıqlı əlaqəsi aiddir. Burada əsas məsələ müəllimin mövqeyi və münasibətidir. Müəllim hörmət, tolerantlıq nümayiş etdirirsə, şagirdlərin öyrənmə müxtəlifliyini qəbul edirsə, səhvləri öyrənmə imkanı kimi dəyərləndirirsə, şagirdlərlə empatiya qura bilirsə, deməli, sinifdə sosial-psixoloji mühit sağlam olacaq. Nəzərə almaq lazımdır ki, yalnız müəllimin adekvat davranışı məktəbdə sosial-emosional mühiti sağlamlaşdırmaq üçün kifayət etmir, burada bütün əməkdaşların səyi vacibdir – məktəb rəhbərindən tutmuş texniki personaladək.

### *Sinifdə mərkəzlərin qurulması*

İnkişafetdirici mühitin yaradılması üçün sinifdə müxtəlif guşələr (fəaliyyət mərkəzləri) təşkil olunur. Guşələr, zonalar, fəaliyyət mərkəzləri və s. kimi adlanan mərkəzlər uşaqların hərtərəfli inkişafını təmin etmək üçündür. Mərkəzlər 2 əsas şərt nəzərə alınmaqla tərtib olunur:

1. Uşaqların maraq və inkişaf ehtiyacları
2. Mövcud olan təlim resursları

Fəaliyyət mərkəzləri dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Riyaziyyat guşəsi
- Kitab guşəsi
- Təsviri incəsənət guşəsi
- Təbiət guşəsi
- Əl əməyi guşəsi
- Milli guşə və s.

Xatırladaq ki, bu bölgü nisbi xarakter daşıyır. Təlim mühitinin təşkilindən asılı olaraq mərkəzlər də müxtəlif ola bilər. Sinifdə təşkil olunan bu fəaliyyət mərkəzləri bilavasitə şagirdlərin iştirakı və əməyi ilə təşkil olunarsa, daha səmərəli olacaqdır.

Fəaliyyət mərkəzləri bir-birindən ayrı təşkil edilir, xüsusi materiallarla təchiz olunur. Mərkəzlərdə qoyulan materiallar (kitablar, həndəsi fiqurlar, kağız, qələmlər, karton, boyalar, plastilin, pazllar, müxtəlif bitkilər, yarpaqlar) uşaqlar üçün əlçatan olmalıdır və uşaqlar həmin materiallarla yaradıcı və müstəqil fəaliyyətə həvəsləndirilməlidir. Fəaliyyət mərkəzləri elə yaradılmalıdır ki, orada uşaqlar kiçik qruplarda bir-birilə ünsiyyət qura, istədikləri fəaliyyət

mərkəzlərini özləri seçə bilsinlər. Öyrədici təlim mühiti uşaqların müstəqilliyinə imkan yaradır, onların təhsil uğurunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

### *Azkomplektli siniflərdə inklüziv təhsil*

İnklüziv təhsilin bir çox tərifləri və mənaları mövcuddur. Onların ümumi elementləri aşağıdakılardır:

- İnklüziv təhsil məktəblərin daha münbit və bütün uşaqlar üçün faydalı olmasına yönələn fasiləsiz prosesdir;
- İnklüziv təhsil təhsil mədəniyyətinin, hüquqi sənədlərin və təcrübələrin şagirdlərə uyğun olması üçün yenidən qurulmasını ehtiva edir;
- İnklüziv təhsil bütün şagirdlərə uyğun olması üçün məktəbin dəyişməsini şərtləndirir;
- İnklüziv təhsil uşaqların məktəbdə və icmada təhsilə çıxışına mane olan konkret səbəbləri müəyyənləşdirib aradan qaldırılması üçün davamlı fəaliyyətdir;
- İnklüziv təhsil bütün maraqlı tərəflərin iştirakı ilə icra edilməli olan bir prosesdir.

Nəzərə alsaq ki, azkomplektli məktəblər müəyyən bir ərazidə yeganə təhsil müəssisəsidir, deməli, həmin ərazidə yaşayan bütün uşaqlar orada təhsil almalıdır. Bu baxımdan bütün azkomplektli məktəblər formal olaraq inklüzivdir. Lakin onların reallıqda inklüziv mədəniyyət nümayiş etdirməsi üçün bir çox tədbirlər görülməlidir:

- Xüsusi təhsil ehtiyacı olan uşaqlara münasibət dəyişdirilməli, onların təhsil hüququ tanınmalıdır;
- Müəllimlərin belə şagirdlərlə iş səriştəsi artırılmalı, diferensial təlimin imkanlarından geniş istifadə edilməlidir;
- İmkan daxilində məktəbin maddi mühiti xüsusi qayğıya ehtiyacı olan uşaqların tələbatına uyğunlaşdırılmalıdır;
- Yerli icmada güclü maarifləndirmə kampaniyası aparılmalıdır və s.

Daha ətraflı: http://www.tipii.edu.az/noduploads/document/7406_nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf

## Mövzu 6. Qruplarla işin təşkili

### *Qrup tapşırıqları və onlara verilən tələblər*

Qrup işi bir neçə şagirdin hər hansı bir problemin həllinə yönəlmiş birgə fəaliyyəti prosesidir. Müxtəlif bölünmə texnikalarından istifadə etməklə (şəkillər, həndəsi fiqurlar, rəngli kağızlar, şəhər adları, ilin fəsilləri, ad günləri, güllər və s.) kiçik qrupa bölünmə (hər qrupda 3-6 nəfər

olmaqla) aparılır. Qrup işi zamanı şagirdlər birgə fəaliyyət göstərir, müxtəlif tipli problemləri birgə həll edirlər. Müzakirə vaxtı hər bir şagird öz fikrini sərbəst söyləyir, başqalarını dinləyir, yeri gəldikdə suallar verir və təkliflər irəli sürür.

Qrup işinin təşkilində müəllimin vəzifələrinə daxildir:

- ✓ İşin məqsədini, planını və vaxtını müəyyənləşdirmək;
- ✓ Qrup işi üçün lazım olan didaktik materialları əvvəlcədən paylamaq;
- ✓ Dərsin məqsədinə uyğun olaraq qruplara bölmənin üsullarını əvvəlcədən müəyyənləşdirmək;
- ✓ Qrup üzvlərinə təlimatı dəqiq vermək və lövhədə qeyd etmək;
- ✓ İşin vaxtını və müddətini müəyyənləşdirmək;
- ✓ Qrup işinin qaydalarını müzakirə etmək və nəticəyə gəlməkdə yardım etmək;
- ✓ Qiymətləndirmə meyarlarını işin əvvəlində şagirdlərin nəzərinə çatdırmaq.

Qrup işində müəllim qrupa nəzarət etməli, lazım gələrsə (çətinlik yaranarsa, izaha ehtiyac olarsa), şagirdlərin işinə müdaxilə etməli, şagirdlərə yönəldici suallar verməklə onların işini istiqamətləndirməli, yaranan suallara cavab verməli, çətinlik yarananda yardım etməli, "zəif" (təlimdə geri qalan) şagirdlərə diqqət yetirməli, şagirdləri qiymətləndirməli və dəstəkləməlidir.

Qrup işində şagirdlər aşağıdakı davranış qaydalarından xəbərdar olmalıdırlar:

- ✓ qrup işi zamanı fəal olmalı;
- ✓ birgə işləməli, əməkdaşlıq etməli;
- ✓ öz fikrini sübut etməyi bacarmalı;
- ✓ digərlərinin fikrinə hörmətlə yanaşmalı;
- ✓ hər kəsə öz şəxsi fikrini söyləməyə imkan yaratmalı, təmkinli olmalı;
- ✓ yaxşı mənada rəqabət aparmalı;
- ✓ mövzu ətrafında danışmalı və vaxtdan səmərəli istifadə etməli;
- ✓ iş zamanı sakitliyə riayət etməli.

Qrup işi şagirdin inkişafında böyük rol oynayır. Bu zaman təlim, tərbiyə və inkişaf sıx vəhdətdə olur. Qrup tapşırıqları *öyrədici (tədqiqat aparılması mümkün), tərbiyəedici (əməkdaşlıq, dinləmə, hörmət)* və *inkişafetdirici (yeni bilik və bacarıqlar aşılamalıdır)* olmalıdır.

Qrup işi zamanı müəllimlərin üzləşdiyi problemlərin yaranma səbəbləri:

- ✓ qruplara bölmə qaydalarını bilməmək;
- ✓ bütün sinfi idarə etmək üçün diqqəti paylaşdıra bilməmək;
- ✓ bəzi uşaqların digərləri ilə birlikdə işləmək istəməməsi;
- ✓ qruplarda işin əməkdaşlıq əsasında qurulmaması;

- ✓ şagirdlərin işi düzgün istiqamətdə aparmaması və işi əyləncə kimi qavraması.

Qrup işləri zamanı şagirdlərin də üzləşdiyi bəzi problemlər olur:

- ➢ məqsədyönlü işləyə bilmirlər, fikirləri dağılır (və ya dağınıqdır);
- ➢ işi qısa müddətdə həyata keçirə və vaxta qənaət edə bilmirlər;
- ➢ şagirdlər əməkdaşlıq edə bilmirlər və s.

Bu tip problemlərdən çıxış yolu olaraq aşağıdakıları sinifdə tətbiq etmək olar:

- ➢ uşaqlarla birlikdə qrupda işin qaydalarını hazırlamalı;
- ➢ qruplara bölünmək üçün müxtəlif şərtlər müəyyənləşdirilməli;
- ➢ qrupları və uşaqlar tərəfindən yerinə yetirilən rolları dəyişməli;
- ➢ tapşırıqlar hazırlayarkən uşaqların təfəkkür səviyyələrini nəzərə almalı;
- ➢ şagird – liderə əlavə mürəkkəb tapşırıq verməli;
- ➢ şagird – lider müəllimin köməkçisi kimi çıxış etməli;
- ➢ qrup işinin qiymətləndirilməsini sinif vasitəsilə həyata keçirməli.

Qrupun qiymətləndirilməsi 3 cür aparıla bilər: *qrafik, meyar cədvəli, qrupdaxili qiymətləndirmə və ya özünüqiymətləndirmə.*

1. *Qrafik* – lövhədə qrafik çəkilir. Şkalalar, qiymətlər və qrupların nömrələri əks etdirilir. Qrupun nailiyyətlərindən asılı olaraq qrafikdəki xətt qalxa, ya da enə bilər.

2. *Meyar cədvəli* – cədvəlin sətirlərində qrupların nömrələri və sütunlarında qiymətləndirmə meyarları qeyd edilir. Qiymətləndirmə zamanı müəllim hər qrupun qarşısında meyara müvafiq olaraq “+” və ya “-” işarələri ilə qrupun nailiyyətlərini qeyd edir.

3. *Qrupdaxili qiymətləndirmə və ya özünüqiymətləndirmə* – qrupun hər bir nümayəndəsinə qrup iştirakçılarının adları və qiymətləndirmə meyarları qeyd edilmiş cədvəl paylanılır. Hər nümayəndə həm özünü, həm də yoldaşlarını meyarlar əsasında (“+” və ya “-” işarələri ilə və ya rəqəmlərlə, simvollarla, xoş sözlə və s. üsullarla) qiymətləndirir. Bu, müəllim və şagirdlərin özləri tərəfindən, yaxud qruplar tərəfindən aparılır.

**Qeyd 1**: Bir məsələyə xüsusi diqqət ayrılmalıdır ki, hər tapşırıq qrup işi üçün yaramır. Tək bir şəxsin öhdəsindən gələ biləcəyi tapşırığı qrup tapşırığı kimi təqdim etmək çox səmərəsiz olacaq. Məsələn, səriştəsiz müəllimlər tərəfindən qrup işi kimi təqdim edilən yararsız tapşırıq nümunələri:

- rutin misalların (alışdırma misallarının) həlli (belə tapşırıqları hər bir şagird təklikdə həll edə bilər, onların həlli üçün müzakirə, ideyalar generasiyası lazım deyil);

- esse yazmaq (esse bir nəfər insanın təxəyyülünün məhsulu kimi qəbul edilir);

- şəkil çəkmək;

- yapma işləri;

- applikasiyalar;

- nöqtələrin yerinə uyğun sözləri qoymaq;

- saitlərin (samitlərin) altından xətt çəkmək və s.

Qrup tapşırığı minimum 3 nəfərin birgə beyin məhsulu ola biləcək tapşırıqlar ola bilər. Məsələn:

- Kağız sancağından daha hansı məqsədlər üçün istifadə etmək olar? Bacardıqca çox tətbiq sahələri fikirləşin və təsvir edin (Bu tapşırığı yerinə yetirmək üçün bir neçə nəfər birlikdə fikirləşir, ideya irəli sürülür, kimsə digərinin ideyasını təkzib edir və ya genişləndirir, başqa bir ideya da irəli sürülür, təsvir məsələləri birlikdə müzakirə edilir və təkmilləşdirilir. Aydındır ki, bu tapşırığı tək yerinə yetirən şagirdin daha geniş düşünmək imkanı olmayacaq, çünki onun fikirlərini inkişaf etdirən, dəstəkləyən və ya təkzib edən partnyoru olmayacaq);

- Verilmiş mövzunu əks etdirən atalar sözləri və misallar yada salın (Burada da çox sayda şagird daha çox atalar sözü xatırlaya bilər və bunların hansının müvafiq olduğunu birlikdə müzakirə etmək mümkün olar);

- Verilmiş situasiyaya uyğun riyazi situasiya məsələsi fikirləşin;

- Verilmiş məsələnin bir neçə həll yollarını göstərin;

- Görmə problemi olan uşağın otağının erqonomik dizaynını hazırlayın və əsaslandırın.

Yuxarıda verilənlər sadəcə bir neçə misaldır. Müəllim dərindən fikirləşməklə keçdiyi materiala uyğun müxtəlif səpkili qrup tapşırıqları hazırlaya bilər. Əsas odur ki, tapşırıq hazırladıqdan sonra müəllim öz-özünə bu sualları versin:

- Bu tapşırığı yerinə yetirən uşaqlar nə öyrənəcəklər?
- Mən onların öyrənib-öyrənmədiyini necə biləcəyəm?
- Bu tapşırığı yerinə yetirmək üçün nə qədər şagird lazımdır?
- Bu, onların marağına səbəb olacaqmı?

**Qeyd 2**: Azkomplektli sinifdə qrupları formalaşdırarkən həm eyni yaşlı, həm də müxtəlif yaşlı şagirdləri bir qrupda birləşdirmək mümkündür. Layihə tipli qrup tapşırıqlarını müxtəlif yaşlı şagirdlərə vermək səmərəli olur.

## *Müstəqil işlər və onların əhəmiyyəti*

Müstəqil işlərdə şagirdlərin tədqiqat aparmasına, yaradıcılığına daha geniş yer vermək mümkün olur. Müstəqil işlər şagirdin özünüidarə vərdişlərinin formalaşdırılmasına, elmi dünyagörüşünün genişləndirilməsinə imkan yaradır, sinifdə müəyyən fənlərdən verilmiş biliyi dərinləşdirir, şagirdlərin meyil və qabiliyyətini müəyyənləşdirib üzə çıxarır. Şagird ona tapşırılan iş üzrə axtarış aparır, bunun üçün o, müstəqil çalışmağa səy edir, bu cəhət şagirdi məsələnin

mahiyyətini dərindən dərk etməyə doğru istiqamətləndirir. Şagird daha müstəqil olur, söhbət və mübahisələrə qoşulur və bu iş onun məntiqi təfəkkürünü inkişaf etdirir, nitqini zənginləşdirir.

Müstəqil işlər həm tək-tək şagirdlərlə, həm də qrup halında aparıla bilər. Bu işlərin formaları çox müxtəlif və rəngarəngdir. Lakin yadda saxlamaq lazımdır ki, müstəqil işlərin bu və ya digər formasını seçərkən, mövzuları müəyyənləşdirərkən yerli şəraiti, məktəbin tələbatını, şagirdlərin marağını, yaş və bilik səviyyəsini və bir sıra digər məsələləri mütləq nəzərə almaq lazımdır. Bundan əlavə, şagirdlərin müvəffəqiyyət qazanması üçün müəllim hər şeydən əvvəl, könüllülük prinsipinə, onların istək və arzularına, mövcud bilik səviyyələrinə fikir verməlidir. Bir şeyi də nəzərə almaq lazımdır ki, eyni bir şagirdin müxtəlif fənlər üzrə müstəqil işlərlə yüklənməsinə yol vermək olmaz. Belə olan təqdirdə həmin şagirddə aparılan işə qarşı məhəbbət əvəzinə, nifrət yarana bilər.

## Mövzu 7. Tədris və təlim materiallarının hazırlanması

Azkomplektli sinifdə müəllim olmağın məsuliyyətli və eyni zamanda maraqlı tərəflərindən biri müxtəlif səviyyəli siniflər üçün öyrədəcəyiniz fənlərlə bağlı geniş təlim və tədris materialları hazırlamaqdır. Bir sinifdə müxtəlif səviyyəli təlimin aparılması geniş şəkildə təlim və tədris materiallarının çoxluğunu tələb edir. Bunlara şəkil kartları, söz-cümlə kartları, eləcə də oyunlar (söz axtarışı və ya viktorina) və qrafiklər (təqvim və ya hava şəraiti cədvəli) kimi əyani vəsaitlər, audio resurslar daxil ola bilər.

Azkomplektli sinfin yerləşdiyi ərazi lazım olan resursların əldə edilməsi baxımından əlverişsiz ola bilər (məsələn, iş vərəqləri hazırlamaq və çoxaltmaq). Lakin tədris və təlim materiallarını yerli materiallardan istifadə etməklə həm aşağı qiymətə, həm də yerli vəziyyətə uyğun şəkildə artırmaq mümkündür. Bunlar yerli bitkilər və çiçəklər; əhəng daşı, kömür və ya gil kimi materiallar; qalay qutuları, plastik butulkalar, konserv qutuları, süd qutuları, jurnallar və bu kimi istifadəsiz əşyalar və ya məişət tullantıları ola bilər. Azkomplektli sinif müəlliminin əsas bacarığı bu cür resursları tədrisə daxil etməsindədir. Sinif üçün hazırlanan materialları müvafiq mövzuda və doğru zamanda istifadə etmək və resursları genişləndirmək üçün cədvəl tərtib etmək də faydalıdır. Mümkün olduqca aşağıdakıları köməkçi materiallar kimi istifadə etmək və bütün şagirdlər üçün əlçatan etmək olar: kitablar, oyun materialları, konkret mövzu materialları, hekayə kitabları, musiqi alətləri və lüğətlər, kağız, qələm, karandaşlar, boya, rəngli markerlər, lövhə və ya flipçart, xəritələr və s. Riyaziyyatdan alışdırma misallarını zərlər vasitəsilə didaktik oyuna çevirmək mümkündür. Boş yumurta qablarından istifadə etməklə cütrəqəmli ədədlərin toplanması və çıxılması əməlləri üzrə alışdırma misallarını oyuna çevirə bilərsiniz. Rəngli

düymələr, qozalar sayma materialı kimi, rəngli lent kəsikləri uzunluq və en məfhumlarını öyrətmək üçün istifadə edilə bilər.

Yadda saxlayın ki, ən yaxşı öyrətmə vasitəsi şagirdin əllə toxuna biləcəyi, müxtəlif manipulyasiyalar edə biləcəyi materiallardır. Ətrafınızdakı istənilən tullantı materialının öyrətmə potensialı barədə düşünün. İnternetdə də bu haqda xeyli material vardır.

***İş vərəqlərinin hazırlanması***

İş vərəqləri tədqiqatın aparılması mərhələsində tapşırıqların, problemin şagirdlərə ünvanlanma vasitəsidir.

Qrup işi aparmaq üçün müəllim əvvəlcədən iş vərəqləri hazırlayır. İş vərəqinin hazırlanması ilə bağlı tələblər:

- ✓ dərsin mövzusuna, məzmununa aid olmalıdır;
- ✓ təfəkkür, yaradıcılıq qabiliyyəti, müstəqil iş qabiliyyəti, estetik qavrayış formalaşdırmalıdır;
- ✓ tapşırıqlar: dəqiq ifadə edilməli; dərsin məqsədinə uyğun və qoyulan tədqiqat probleminin həllinə yönəlmiş olmalı (təfəkkürün növünə görə, məlumat mənbələrinə görə, nəticələri təqdim etmə formasına görə və s.); şagirdlərin yaşına, bilik və intellektual səviyyəsinə, qabiliyyətlərinə və maraqlarına uyğun olmalı və diferensial xarakter daşımalı; aktual, real həyatla və şagirdin təcrübələri ilə bağlı olmalı; kəşfetmə həvəsini artıran, maraqlı, cəlbedici olmalıdır;
- ✓ müxtəlif məlumat mənbələrindən istifadə edilməlidir;
- ✓ nəticələrin təqdimetmə formaları müxtəlif olmalıdır (sxemlər, şəkillər, tədqiqatlar, layihələr, nağıllar və s.);
- ✓ tərtibatı səliqəli, yığcam, estetik, əyani olmalı, orada formal məlumatlar (məsələn, tarix, sinif, şagirdin adı və s.) qeyd olunmalı və nəticələrin təqdimetmə forması konkret şəkildə olmalıdır.

İş vərəqlərindən istifadənin müsbət tərəfləri:

- ➢ rəngarənglik şagirdlərin fəallaşmasına gətirib çıxarır;
- ➢ müəllimin giriş sözü və təlimat üçün ayırmalı olacağı vaxta qənaət edir;
- ➢ şagirdlər işlərin nəticələrini müxtəlif formada təqdim etməyi öyrənirlər.

İş vərəqlərində verilən tapşırıqlar aşağıdakı istiqamətləri əhatə etməlidir:

- ✓ Hafizə iş vərəqi
- ✓ Məntiqi iş vərəqi
- ✓ Tənqidi iş vərəqi
- ✓ Yaradıcı iş vərəqi

## Mövzu 8. Azkomplektli siniflərdə qiymətləndirmənin təşkili

Məktəbdaxili qiymətləndirmə müəyyən vaxt çərçivəsində tədris olunmuş proqram nəticəsinin ölçülməsidir. Əsas qiymətləndirmə növlərinə daxildir:

1. Diaqnostik
2. Formativ
3. Summativ

### *Diaqnostik qiymətləndirmənin təşkili*

Diaqnostik qiymətləndirmə müvafiq təlim istiqamətlərini müəyyənləşdirməklə şagirdin ilkin bilik və bacarıqlarını ölçür və bu səbəbdən kursun və ya bölmənin əvvəlində keçirilir.

Diaqnostik qiymətləndirmədə fəal istifadə olunan üsul və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| ***Tapşırıqvermə*** | *Çalışmalar* |
| ***Müsahibə (şifahi yoxlama)*** | *Müəllimin qeydiyyat vərəqi* ***(şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək istədiyi məsələnin yazıldığı vərəq)*** |
| ***Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq*** | *Söhbət və müəllimin sorğu vərəqi* ***(şa-girdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq)*** |

### *Formativ qiymətləndirmə və onun xüsusiyyətləri. Səmərəli əks-əlaqə*

Formativ qiymətləndirmə dərs ili ərzində müntəzəm olaraq şagirdin öyrənmə fəaliyyətinin meyarlar üzrə izlənilməsidir, qeyri-formal xarakter daşıyır və onun  meyarları fəaliyyətyönümlü olur. Həmçinin formativ qiymətləndirmə üsulları da təlim nəticəsinin deyil, təlim fəaliyyətinin izlənilməsi üçün nəzərdə tutulur.

Formativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| ***Müşahidə*** | *Müşahidə vərəqləri* |
| ***Şifahi sual-cavab*** | *Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi* |
| ***Tapşırıqvermə*** | *Çalışmalar* |
| ***Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq*** | *Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq)* |
| ***Oxu*** | *Oxu üzrə qeydiyyat vərəqi* |
| ***Yazı*** | *Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi* |
| ***Layihə*** | *Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli* |
| ***Rubrik*** | *Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası* |
| ***Şifahi və yazılı təqdimat*** | *Meyar cədvəli* |
| ***Test*** | *Test tapşırıqları* |
| ***Özünüqiymətləndirmə*** | *Özünüqiymətləndirmə vərəqləri* |

Formativ qiymətləndirmə məlumatları aşağıdakı suallara cavab verməyə kömək edir:

- ✓ Şagird nələri öyrənmişdir?
- ✓ Daha nələri öyrənməlidir?
- ✓ İnkişaf üçün hansı addımları atmalıdır?

Formativ qiymətləndirmə zamanı ən çox müraciət edilən anlayışlar qiymətləndirmə meyarı, rubrik və portfoliodur. Qiymətləndirmə meyarı şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün məzmun standartları əsasında müəyyənləşdirilmiş tələblərdir. Rubrik şagirdin nailiyyətlərini ifadə edən meyarların (bacarıqların) səviyyələrinin təsvirinə əsaslanan qiymətləndirmə şkalasıdır. Portfolio şagirdə aid olan sənədlərin və əsasən formativ qiymətləndirmə məlumatlarının qeydə alındığı qovluqdur.

Formativ qiymətləndirmənin şagirdlə ən səmərəli əks-əlaqə üsullarından biri *səhvlər üzərində iş a*parmaqdır. Sinif və ev tapşırıqlarını yoxlayarkən buraxılan səhvlərin aydın şəkildə sadalanması və həmin səhvləri təkrarlamamaq üçün hansı addımların atılması ilə bağlı tövsiyələrin tapşırıq dəftərində yazılması şagirdin öz fəaliyyətinə tənqidi yanaşması üçün mühüm əhəmiyyətə malikdir. Bu yolla şagird nəinki səhvlərini görür, həmçinin həmin səhvləri düzəltmək üçün tövsiyələr də alır. Öyrənmə prosesində əks-əlaqənin rolu barədə ətraflı məlumat almaq üçün Dilan Uilyamın müsahibəsinə qulaq asın:

http://www.tipii.edu.az/az/videos#lg=1&slide=38

## *Azkomplektli siniflərdə summativ qiymətləndirmə*

**Summativ qiymətləndirmə (yekun)** şagirdlərin son nəticlərini öyrənmək məqsədi ilə aparılır.

Summativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| **Yoxlama yazı işləri** | *Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi* |
| **Layihə** | *Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli* |
| **Şifahi sorğu** | *Şifahi sorğu üzrə qeydiyyat vərəqi* |
| **Test** | *Test tapşırıqları* |
| **Tapşırıqvermə** | *Tapşırıq, çalışma və laboratoriya işləri* |
| **Yaradıcılıq və əl işləri** | *Fənlərə müvafiq olaraq rəsmlər, hazırlanan məhsullar və digər əl işləri* |

## Mövzu 9. Azkomplektli sinfin idarəedilməsi

Azkomplektli sinifdə tədrisə otağın tərtibatı da daxil olmaqla, şagirdlərin idarə edilməsi və hər sinfə xas olan tədris planlarının uğurlu mübadiləsi daxildir. İstifadə edilən yer və mənbələrdən uğurlu nəticələr əldə etmək üçün sinfi tərtib və təşkil etmək azkomplektli sinif müəlliminin vəzifəsidir. Azkomplektli sinfin idarə edilməsi aşağıda göstərildiyi kimi üç element arasında dövr edir:




Aşağıdakı yollarla müəllim sinif idarəçiliyində əsas rol oynayır:

- sinif otağının istifadəsini, xüsusən də həm özünün, həm də şagirdlərin dəyişkən oturma qaydalarını planlaşdırmaqda;
- eyni zamanda birdən çox dərsi planlaşdırmaq və həyata keçirməkdə;
- şagirdləri birlikdə işləməyə sövq edən fəliyyətlərin tərtibində;
- təlim və tədris materiallarını hazırlamaq, planlaşdırmaq və istifadə etməkdə;
- öyrənmə prosesini davamlı etmək üçün şagirdlərdən gözlənilən davranışlar normasının müəyyənləşdirilməsində.

Səmərəli azkomplektli sinif idarəsinin vacib bir məsələsi sinif otağının hər bir şagird, kiçik qruplar və bütün qrupun sərbəst hərəkətini təmin edən, fərqli fəaliyyətlərin həyata keçirilməsi üçün istifadə oluna bilən şəkildə təşkil edilməsidir. Ənənəvi oturma qaydası, sinifIə üzbəüz dayanan müəllim və lövhə eyni anda müxtəlif fəaliyyətlərin aparıldığı azkomplektli sinif üçün keçərli deyil. Buna görə də sinif otağının fərqli hissələrə necə bölə bilmək barədə düşünmək

lazımdır. Bu prosesdə hədəf rahatlıqdır – sinifdə arzulanan öyrənmə sahələrini yarada bilmək üçün şagirdləri və partaları rahat hərəkət etdirə bilməkdir. Bu, tədrisə başlamazdan əvvəl bəzi hazırlıq işlərini tələb edir:

✓ dərsləri aparmaq üçün sinifdə mövcud olan məkan və resursları dəyərləndirmək;

✓ sinifdəki şagirdlərin və siniflərin sayını nəzərə alaraq mövcud məkanda mümkün olacaq tədris metodları və şagird fəaliyyətlərinin növləri barədə qərar qəbul etmək (məsələn, çoxlu qrup işləri planlaşdırılırsa, qrup müzakirəsi və fəaliyyəti üçün müxtəlif sahələr yaratmaq, fərdi tədris və müstəqil öyrənmə üçün daha az yer saxlamaq);

✓ şagirdlərin ən çox istifadə etdikləri sahələrə, habelə resurs və materiallara maneəsiz yaxınlaşa bilmələri üçün fərdi və qruplar üçün sahələrin necə yaradılması haqqında düşünmək.

### *Liderlik üslubları*

Yaxşı lider özündə bəzi vacib xüsusiyyətləri birləşdirməlidir. Buraya özünü tanıma, özünü idarəetmə, uzaqgörənlik, motivasiya etmək bacarıqları daxildir.

Alman-amerikan psixoloqu Kurt Levin və həmkarları 1939-cu ildə liderin qərar qəbulu ilə əlaqədar təcrübə keçirdilər və üç liderlik üslubunu müəyyənləşdirdilər.

1. Avtoritar. Belə liderlik üslubunun üstün cəhəti ondan ibarətdir ki, cəld qərar qəbulu tələb edən hallarda məsləhətləşmədən qərar qəbul olunur. Mənfi cəhəti isə odur ki, yaradıcılığa və motivasiyaya mənfi təsir göstərir.

2. Demokratik. Bu liderlik üslubunda komandanın digər üzvlərinə müəyyən imkan yaradılır, lakin son qərarı yenə də lider verir. Bu liderlik üslubunun mənfi cəhəti odur ki, qərar qəbulu prosesi uzun müddət davam edə bilər. Lakin belə idarəçilik üslubu innovativlik və yaradıcılığın mühüm əhəmiyyət daşıdığı qərar qəbulu prosesində səmərəlidir.

3. Liberal. Bu liderlik üslubu daha rahat idarəçilik üslubudur və liderin qərar qəbulu prosesinə təsiri minimuma endirilir. Burada qərar qəbulu prosesinə nəzarət tamamilə əməkdaşlara verilir. Bu zaman hər kəs müstəqil olmaqla yanaşı, daha çox məsuliyyət daşıyırlar. Buna görə də təlimat və istiqamət almaqla daha məhsuldar çalışan şəxslərə bu idarəçilik üslubunun tətbiqi səmərəsiz olur.

Bu təcrübə nəticəsində müəyyən olundu ki, ən səmərəli idarəçilik üslubu demokratik idarəçilikdir. Avtoritar idarəçilik üslubu inqilaba yol açır, liberal idarəçilik üslubunda isə işlərdə ardıcıllıq olmur. Lakin demokratik idarəçilik heç də bütün hallarda uğurlu olmur. Məqsədlərindən, bilik və bacarıqlardan asılı olaraq bəzən digər liderlik üslubları daha faydalı ola bilər.

### *İdarəetmə problemlərinin qarşısının alınması*

Aşağıda qeyd olunan üsullar sinifdə idarəetmə problemlərinin qarşısının alınması baxımından faydalıdır:

✓ *Normal, təbii səs tonu ilə danışın.*

Bir çox müəllimlər, xüsusilə də dərs deməyə yenicə başlayanlar, normadan yüksək səslə, yarı qışqıraraq danışır. Onu bilmək lazımdır ki, səsi bu cür yüksəltmək şagirdlərin diqqətini çəkmək üçün heç də yaxşı üsul deyil. Bu, sinifdə stress yaradır, şagirdləri yorur və onlarda dərsə qarşı mənfi hisslər formalaşdırır. Müəllimlər danışarkən fərqli səs tonlarından isifadə etməlidirlər. Əgər siz şagirdlərdən dəftərlərini kənara qoyub, qruplara bölünməklərini istəyirsinizsə, əmr şəklində cümlələrdən istifadə etməlisiniz (Kitabları örtün; qruplara ayrılın və s.). Əgər məqsədiniz onlara hekayədəki obraz haqqında sual verməkdirsə və ya Roma imperiyasının süqutunun səbəbləri barədə soruşmaqdırsa, onda dəvətedici danışıq tonundan istifadə etməlisiniz.

✓ *Dərsə bütün şagirdlərin diqqətini cəlb etdikdən sonra başlayın.*

Tez-tez olur ki, müəllimlər şagirdlərə "Biz artıq dərsə başlayırıq, səssiz olun!", "Fikrinizi dərsə yönəldin!" və s. bu kimi göstərişlər verdikdən sonra bütün şagirdlərin sakitləşməyini və ya çantalarından dəftər-kitablarını çıxarıb hazır vəziyyətə gəlmələrini gözləmədən, dərhal dərsi izah etməyə və ya tapşırığın təlimatlarını verməyə başlayır. Bu zaman demək olar ki həmişə, müəllimin nə dediyini eşitməyən şagirdlər eşitmədiklərini bir-birindən soruşurlar. Oxşar səs-küylü vəziyyət müəllimin diqqətini yönəltmədiyi şagirdlərin dərsin sonrakı mərhələlərində də dərsə fikir vermədikləri zaman yaranır. Bu problemin yaranmaması üçün isə sadəcə olaraq şagirdlərin hamısının sakitləşməsini gözləmək və o vaxtacan danışmamaq lazımdır. Müəllimin danışmağa başlamaq üçün onları gözlədiyini görən şagirdlər adətən özləri səs-küy salan sinif yoldaşlarına "Şşşş", "Bəsdir də, qurtarın danışmağı", "Uşaqlar, sakitləşin" kimi iradlar bildirməyə başlayır. Bu isə sizin işinizi asanlaşdırır.

✓ *Əl siqnallarından və digər qeyri-verbal ünsiyyət vasitələrindən istifadə edin*

Bir əlinizi havaya qaldıraraq şagirdlərlə göz kontaktı yaratmaq sinfi sakitləşdirməyin və onların diqqətini özünüzə cəlb etməyin əla yoludur. Şagirdlərin bu jestə öyrəşmələri bir qədər vaxt tələb edir, lakin öyrəşdikdən sonra bu jest mükəmməl işləyir. Əlinizi qaldıraraq şagirdlərə işarə edin ki, onlar da əllərini qaldırsınlar. Bütün şagirdlərin əlləri qalxdıqdan sonra isə öz əlinizi aşağı salın və danışmağa başlayın. Aşağı sinif şagirdləri üçün üç dəfə əl çalaraq, şagirdlərinizin də sizə cavab olaraq iki dəfə əl çalmaqlarını istəyin. Bu, bütün şagirdlərin diqqətini sizə yönəltməyin

əyləncəli və aktiv bir yoludur. İşıqları yandırıb-söndürmək də şagirdlərin diqqətini qısa müddətdə cəlb etməyin klassik və səmərəli üsullarından biridir.

- ✓ *Davranış problemlərinə cəld və müdrik reaksiya verin*

Hər hansı bir şagirdlə aranızda yaranmış gərginliyi və ya iki şagird arasındakı problemi bacardığınız qədər tez aradan qaldırmağa çalışın. Münaqişə nəticəsində şagirdlərdə yaranmış mənfi hisslər qısa bir zamanda artaraq böyük küskünlüklərə çevrilə bilər. Problemli situasiyanın üzərindən günlər keçməsinə yol verməyin. Yaranmış münaqişələri müdrikcəsinə həll etməyə gəlincə isə, əgər problem yalnız siz və şagird arasındadırsa, məsələni bütün sinfin gözü önündə və ya dərsin ortasında müzakirə etməyə ehtiyac yoxdur. Yaxşı olar ki, dərsin sonunu gözləyib şagirdlə tək danışasınız. Bu zaman isə şagirdi dərhal günahlandırmaq və ya tənqid etmək əvəzinə sadəlövh səslənən, lakin şagirdə davranışlarına görə məsuliyyət hiss etdirən suallar vermək daha səmərəlidir. Məsələn: “Sənə necə kömək edə bilərəm?”, “Belə bir hal olub, bunun bir daha təkrar olunmaması üçün nə edə bilərik?” və s. Fərdi söhbət apararkən şagirdi heç nədə günahlandırmayın. Cümlələrinizi elə seçin ki, sözləriniz sizin şagird üçün narahatlığınızı ifadə etsin (hətta əslində bunu hiss etməsəniz belə). Bu cür situasiyalarda adətən danlanmağı gözləyən şagird öz səhvini başa düşür və nəticə çıxarır. Yox, əgər şagirdə dərs ərzində irad tutursunuzsa, iradınızı neytral formada çatdırmağa çalışın. Məsələn, “Tapşırığı etmək yerinə, söhbət niyə edirsən?” demək əvəzinə, “Deyəsən sualın var?” deyə şagirdə müraciət etmək daha yaxşıdır. Bu cümlələrin hər ikisi şagirdin diqqətini tapşırığa yönəltmək məqsədinə qulluq etsə də, ikinci cümlə daha faydalıdır. Çünki müəllimin şagirdə müsbət yanaşmasını göstərir.

- ✓ *Düşünülmüş və şagirdləri dərsə cəlb edə biləcək dərs planı qurun*

Qeyd etmək lazımdır ki, bu məsləhət bəndlərin içində ən vacibidir. Yəqin özünüz də bilirsiniz ki, adətən bunu açıq şəkildə dilə gətirməsələr belə, şagirdlər maraqsız və sıxıcı dərslərdə darıxır. Darıxan şagirdlər isə dərsdə problem yaratmağa ilkin namizədlərdir. Zəif planlaşdırılmış dərslərdə müəllim nitqi adətən daha çox yer tutur, dərs bir növ mühazirə xarakteri daşıyır. Şagirdlər tərəfindən praktiki formada öyrənmə və ya düzgün cavablara şagirdlərin özlərinin gəlib çıxması halları isə azlıq təşkil edir. Bunun üçün isə müəllimlər dərs planlaşdırmasına xüsusi diqqət yetirməli və vaxt ayırmalıdırlar. Həmçinin dərsinizi tez-tez fərqli formalarda keçməyə çalışın. Dərsi həmişə eyni cür keçmək hər şeyi adiləşdirir, bu isə darıxma hallarına gətirib çıxarır. Darıxma isə, sözsüz ki, davranış problemlərinə səbəb olur. Planlaşdırmadan danışarkən onu da qeyd edək ki, sadəcə olaraq, dərslikdən bu gün sinifdə edəcəyiniz mətn və tapşırıqları qələmlə işarələmək planlaşdırma hesab olunmur.

✓ *Sinif qaydalarını yaradın və onları davamlı olaraq tətbiq edin*

İlk dərs günündən sinif qaydalarını yaradın və qaydaları pozacaqları halda bunun nə ilə nəticələnəcəyindən şagirdləri xəbərdar edin. Əgər siz bircə dəfə belə olsa, qəbuledilməz davranışı cavabsız qoysanız, gələcək qayda pozuntularına yaşıl işıq yandırmış olacaqsınız. Məqsədəuyğun sinif qaydaları tərtib edin və qaydaların pozulması hallarında ədalətli ‘cəzalar’ tətbiq edin. Qaydalara əməl olunması üçün şagirdlərə qaydaların səbəblərini də izah etmək lazımdır. “Dəhlizdə qacmayın!” deməyin yerinə, “Biz dəhlizdə qaçmırıq, yeriyirik, çünki dəhlizdə qaçsanız, başqaları ilə toqquşa bilərsiniz” demək şagirdlərə qaydalarınızın məntiqli və əsaslı olduğunu göstərir. Qayda pozuntularına cavab olaraq verilmiş “cəza”lar isə şagirdin törətdiyi əmələ uyğun seçilməlidir. Məsələn, əgər şagird rəsm dərsində rəngləri partalara yaxıbsa, buna uyğun məntiqi cəza bu partaları şagirdə təmizlətdirmək olacaq. Bunun əvəzinə tənəffüsə çıxmamaq cəzası və ya törədilən əmələ aidiyyatı olmayan digər bir cəza verməyiniz şagirdlərin gözündə sizi ədalətsiz və pis niyyətli müəllimə çevirir.

✓ *Səs salan şagirdə tərəf irəliləyin və ya şagirdə sual verin*

Əgər şagird özünü sinifdə qaydalara uyğun aparmırsa, dərs prosesini dayandırmadan şagirdə tərəf irəliləyin və düz onun yanında dayanın. Müəllimin belə yaxın məsafədə dayandığını görən şagirdlər, adətən fikirlərini dərsə yönəldir. Bununla yanaşı, birbaşa şagirdə ünvanlanmış sual verərək də şagirdlərin fikrini dərsə qaytara bilərsiniz.

✓ *İstənilən halda sakitliyinizi qoruyun*

Heç vaxt qışqırmayın. Qışqırmağın yerinə, sadəcə olaraq, geriyə saymaq (5,4,3,2,1) və ya bir neçə saniyə gözünüzü çəkmədən şagirdlərə baxmaqla, daha yaxşı nəticə ala bilərsiniz.

✓ *Şagirdlərinizə göstərin və hiss etdirin ki, onların nailiyyətlərində maraqlısınız*

Şagirdləriniz bilməlidir ki, onların dərs oxuyub-oxumaması sizin üçün önəm kəsb edir. Hətta dərsə heç maraq göstərməyən şagirdlər belə, sizin onlara olan inamınızı hiss edəndə, dərsinizi pozmamağa və dərsinizdə aktivlik göstərməyə çalışır. Bunun üçün isə şagirdlərinizlə müsbət münasibətlər yaratmağınız və müəllim olaraq sinifdə necə davranış sərgilədiyiniz (bezmiş, yorğun, həyəcanlı, yoxsa həvəsli və s.) çox vacibdir. Yadda saxlayın ki, bu elementlər şagirdlərinizin dərsinizə necə yanaşacağına birbaşa təsir göstərən önəmli faktorlardandır.

✓ *Sizi narahat edən və ya sıxan şəxsi problemlərinizi sinif otağına gətirməyin*

Əgər siz sinfə qıcıqlanmış vəziyyətdə gəlsəniz, inanın ki, bu şagirdlərninizi də əhval-ruhiyyəsində özünü dərhal əks etdirəcək. Əgər biz təhsil verən şəxslər olaraq məktəbdə olmaq istəmədiyimizi hiss etdiririksə (üz ifadəsi, baxışlar, monoton səs tonu, bədən dili və s. vasitəsilə), şagirdlərimizin də həvəsdən düşməsi qaçılmazdır.

Sinfin idarə edilməsi strategiyaları barədə aşağıdakı animasiya filmində də faydalı məlumatlar ala bilərsiniz:

"Müəllim və intizam məsələləri" http://www.tipii.edu.az/az/videos#lg=1&slide=45

## *Davranış problemlərinin qarşısının alınması*

Birdən çox sinif səviyyəsinə aid şagirdləri məhdud sahəsi olan bir sinifdə toplamaq bəzən problemlər yarada bilər. Buna görə də nəzərə alın ki, planlaşdırma sinif fəaliyyətlərində yayınmaların qarşısını almaq üçün vacibdir. Şagirdlərin davranış qaydalarının əvvəlcədən müəyyənləşdirilməsi bu problemin həlli istiqamətində uzun sürən bir proses ola bilər. Sinifdə müsbətyönlü nizam-intizam mühiti yaratmaq və heç bir fiziki, cismani cəza tətbiq edilməyəcəyindən əmin olmaq üçün:

- ✓ Dərsin ilk həftəsini şagirdlərin yeni (və ya təkmilləşmiş) komplekt mühitləri ilə tanışlığa həsr etməli: yerinə yetiriləcək tapşırıqlar üçün vəzifələri müəyyənləşdirmək, hər bir fəaliyyət üçün ayrılmış yerləri göstərmək, sinif otağının tərtibinə və əşyaların səliqəli şəkildə yerləşdirilməsinə cəlb etmək və lazım olanda otaq mebelləri və resursların yerdəyişməsini necə etməyi təcrübədən keçirmələrinə icazə vermək (özləri!).
- ✓ Şagirdlərdən evdə və məktəbdə riayət etdikləri qaydalar haqqında qrup halında müzakirə aparmalarını, qruplar üçün ortaq qaydaların bütün sinfə bildirilməsini və daha sonra bunların bir neçəsini lövhəyə yazmalarını xahiş edin. Şagirdlər səsvermə ilə yazılan qaydalar arasından altı qayda seçirlər və siz bu qaydaları sinfinizin davranış qaydalarının əsası kimi istifadə edə bilərsiniz.
- ✓ Təlimatlara əməl edən və ya etməyən şagirdləri gözləyən nəticələr haqqında qərar qəbul edin. Arzuolunan sosial bacarıqlar və nümunəvi davranışlar sərgiləyən şagirdlər üçün xüsusi tərif və ya müsbət rəyi ifadə edən digər üsullar şagirdlər arasında müsbət abu-havanın yayılmasına şərait yaradır. Hər hansı bir uşaq yersiz bir hərəkət etdikdə müşahidə etməli və anlayışlı davranmaqla yanaşı, şagirdlərə bu cür davranışın tolerant olmadığını və nizam-intizamda daima riayət edilməli olan müəyyən qaydaların olduğunu başa düşmələrinə kömək etməlisiniz.
- ✓ Kiçik qruplarda işləyən uşaqlara qrup fəaliyyəti zamanı görmək istədiyiniz davranış normalarını başa düşmələrinə kömək edin: növbələrini gözləmək, bütün qrup üzvlərini fəaliyyətə həvəsləndirmək və s.

- ✓ Sinifdəki hər bir yer üçün riayət edilməli qaydaları göstərin, məsələn, əgər oxu guşəsi yaratmısınızsa, şagirdlərinizə izah edin ki, orda olarkən sakit olmalı və danışmamalıdırlar.
- ✓ Şagirdlərə davranış qaydalarını yalnız təlimatla deyil, həm də özünüz yaxşı davranışa nümunə olmaqla da göstərin.

## Mövzu 10. Sinifdaxili ünsiyyət: maneələr və onların aradan qaldırılması

### *Konfliktlər və onların həlli*

Müəllimlərin bəzi davranış modelləri şagirdlərlə münasibəti pozur, digərləri isə münasibətlərin yaranmasına səbəb olur. Nelsen, Lot və Qlen münasibət qurucu və münasibət pozucu adlandırdıqları beş təzadlı davranışı müəyyən edir.

Pozucu adlanan davranışlar yaxşı münasibətlərin yaranmasının qarşısını alan davranışlardır, çünki onlar hörmətsizlik yaradır və şagirdləri ruhdan salır. Qurucu davranışlar isə yaxşı münasibətlərin yaranmasına səbəb olan davranışlardır, çünki onlar qarşılıqlı hörmət formalaşdırır və şagirdləri ruhlandırır. Münasibət qurucu və münasibət pozucu davranışların müqayisəsinə dair bəzi nümunələr aşağıda verilmişdir (birinci verilən davranış pozucu, qarşısında yazılan isə qurucudur).

*Fərziyyə və yoxlama.* Müəllimlərin əksəriyyəti şagirdləri yoxlamadan onların nə düşündükləri və nə hiss etdikləri, nəyi bacarıb-bacarmayacaqları, hansı suala cavab verib-verməyəcəklərini bildiklərini fərz edirlər. Daha sonra isə bu fərziyyələrə əsasən şagirdlərlə iş aparırlar. Fərz etmənin əksinə olaraq, yoxlama yolu ilə şagirdlərin hiss və düşüncələrinin müəyyənləşdirilməsinə üstünlük verilməsinə tövsiyə edilir.

*Xilas etmə və axtarış imkanı.* Müəllimlər şagirdlərinə hər zaman yardım etməyə çalışırlar. Onlar şagirdlərinə hər hansı məsələ haqqında izahat verəndə, çətin vəziyyətdən çıxış yolu təmin edəndə və ya şagirdlərin görməli olduqları işi yerinə yetirdikdə onlara yardım etdiklərini düşünürlər. Buna baxmayaraq şagirdlər vəziyyəti özləri anladıqda və öz düşüncələrinə əsasən hərəkət etdikdə daha yaxşı inkişaf edirlər. Məsələn, müəllimlər “Hava soyuqdur, gödəkcənizi geyinməyi unutmayın” – dedikdə vəziyyəti izah edir və şagirdləri həmin vəziyyətdən xilas edirlər, lakin “Bayıra baxın. Öz qayğınıza qalmaq üçün nə etməlisiniz?” – dedikdə müəllimlər şagirdləri axtarış aparmağa sövq edirlər.

*İdarəetmə ilə işə cəlb etmə və həvəsləndirmə.* Müəllimlər şagirdlərə “Bunu götür”, “Bunu sil”, “Tənəffüsə çıxmazdan öncə yazı masanızı səliqəyə salın” dedikdə onlara qarşı hörmətsizlik etdiklərini dərk etmirlər. Çünki bu cür əmrlərin bir sıra mənfi təsirləri mövcuddur. Bu ifadələr asılılıq yaradır, təşəbbüskarlıq və əməkdaşlıq fikirlərini aradan qaldırır və şagirdləri onların üzərinə düşən kiçik işlər ilə kifayətlənməyə alışdırır. Bu növ idarəetmə şagirdlərin özlərini idarə etmələrinə həvəsləndirmə və cəlb olunma işi ilə təzad yaradır. Əmr vermək əvəzinə müəllim şagirdlərə “Zəng tezliklə çalınacaq. Növbəti dərs üçün otağı səliqəyə salmaq məqsədilə gördüyünüz bütün işləri yüksək qiymətləndirirəm” – deyə müraciət edə bilər.

*Gözləntilər və qeyd etmə.* Müəllimlərin şagirdlərdən yüksək nailiyyət gözləməsi və onların potensialına inanması böyük əhəmiyyət daşıyır. Buna baxmayaraq, şagirdlər müəllimlərin inamlarını doğrultmadıqları halda “Mən həqiqətən inanırdım ki, sən bunu bacaraqsan” və ya “Mən sənin bundan artığına qadir olduğunu düşünürdüm” ifadələrini söylədikdə, şagirdlər daha çox ruhdan düşürlər. Əksinə, müəllimlər şagirdlərin inkişafını izlədikdə və daha sonra şagirdlərin diqqətini bu irəliləyişə yönəltdikdə şagirdlər daha çox nailiyyət əldə edirlər. Onların uğursuzluqlarına deyil, əldə etdikləri nailiyyətlərə diqqət yönəltmək şagirdləri daha da ruhlandırır.

*“Adaltizm” və hörmətlə yanaşma.* “Siz heç zaman ….”, “Bu işi gördüyünə inana bilmirəm” – bu cür ifadələr şagirdlərdə ruh düşkünlüyü yaradır. “Bu məsələdə səndən nə istədiyimi bilirsən” demək əvəzinə onlara vərəq təqdim edərək “Bu məsələdə sənin fikirlərin nədən ibarətdir?” – deyə bilərsiniz.

Müəllimlər münasibət pozucu davranış modellərindən nə qədər tez imtina etsələr, müəllim-şagird konfliktləri bir o qədər tez aradan qalxar. Hər bir halda məktəb həyatında müəllim-şagird arasında da konfiliktlər baş verir. Bu zaman şagirdlər etik qaydaları keçməmək şərti ilə öz fikirlərini müəllimlərinə deməli, əgər problem həll olunmazsa, məktəbin psixoloqu ilə məsləhətləşib, məsələni yoluna qoya bilərlər.

Bu barədə ətraflı: “İntizamlı sinif necə qurulur” http://www.tipii.edu.az/az/videos#lg=1&slide=0

## *Səmərəli ünsiyyət vərdişləri*

Şagirdlərin hamısı eyni deyil, hər bir müəllim bu fərqlərdən xəbərdar olmalı və nəzərində saxlamalıdır. Bir çox amillər hər bir uşağı ən yaxşı öyrəndiyi və öyrənə biləcəklərinə görə özünəməxsus və fərqli edir. Azkomplektli məktəblər azsakinli ucqar kənd ərazilərində yerləşir. Şagirdlər çox kasıb ailədə və təhsil üçün əlverişsiz ev şəraitində yaşaya bilərlər. Bəzilərində qidalanmanın zəifliyi ilə bağlı olan fiziki inkişaf geriliyi, həmçinin zəif görmə və eşitmə, digər fiziki və ya əqli çatışmazlıqları səbəbiylə xüsusi təhsil ehtiyacları ola bilər. Bundan əlavə, bəzi yerlərdə

qız uşaqları ev işlərinə və valideynlərin istəksizliyinə görə oğlanlarla müqayisədə daha şanssız, digər yerlərdə isə oğlanların məktəbə getmə ehtimalından daha çox ola bilər.

Valideynlərin təhsil səviyyəsi də uşaqlarının öyrənməyə marağını artırır və ya azaldır. Tədqiqatlar göstərir ki, valideynlərin təhsili, xüsusən də anaların təhsilli olması uşağın qavrama, yaddaş və öyrənmə nailiyyətlərində fərq yaradır. Məhz buna görə azkomplektli sinif müəllimi şagirdlərinin hər birinin ailəsini və fərdi keçmişini bilməklə, onların öyrənmə maraqları və qabiliyyətləri arasında yaranan fərqlərin öhdəsindən gəlməlidir.

Müəllim fərqli bilik və bacarıqlara sahib hər bir şagirdə müxtəlif üsullarla yol tapa bilər:

- ✓ Sinfin cinsindən, sosial-iqtisadi vəziyyətindən, qabiliyyətindən və s. asılı olmayaraq bütün uşaqlara açıq olduğundan əmin olmaq;
- ✓ Çatdırılan mövzu və istifadə etdilən metodları şagirdlərin hər birinin fərdi qabiliyyət və ehtiyaclarına uyğunlaşdırmaq, erkən diqqətsizlik və ya tərəddüdetmə əlamətlərinə qarşı xüsusilə həssas yanaşmaq;
- ✓ Yeni gələn şagirdlərə, xüsusən də məktəbəqədər təhsili olmayanların tez-tez yaşadıqları qorxu, narahatlıq və həyəcanı dəf etmələrinə kömək etmək;
- ✓ Şagirdlərin yaşayış şəraitini, ailə vəziyyətini və məktəbdən gözləntilərini başa düşə bilmək üçün onları tanımağa çalışmaq. Ailələr ilə söhbətlər və şagirdlərin evlərinə baş çəkməklə bunu asanlaşdırmaq mümkündür; bu cür məlumatlar sinfin idarəedilməsinin ən yaxşı yollarını tapmaqda və hamı üçün öyrənməni asanlaşdıracaq mühitin formalaşmasına kömək edə bilər;
- ✓ İdrak inkişafını stimullaşdırmaq, dil bacarıqlarını inkişaf etdirmək və söz ehtiyatını artırmaq məqsədilə yaş, sinif və qabiliyyət səviyyələrini nəzərə almaqla oğlan və qızlar arasında interaktivliyi yüksəltmək.

Sonuncu bənd xüsusilə vacibdir. Bir çox komplektləşdirilmiş şərtlər daxilində qızlar oğlanlarla müqayisədə nisbətən passiv ola bilərlər. Buna görə də qızları məktəbə qəbul etdikdən sonra ilk növbədə oğlanlarla eyni səviyyəli iştiraka və nailiyyətə sövq etmək vacibdir. Oğlanlardan gözlənilən müvəffəqiyyətin qızlardan da gözlənildiyini onlara hiss etdirməklə, suallar vermək və cavablandırmaqda bərabər olduqlarına inandırmaqla və sinifdaxili işlərdə məsuliyyət daşıdıqlarını hiss etdirməklə qızları da sinifdaxili fəaliyyətlərdə iştiraka (bəzən qızlarla, bəzən oğlanlarla qruplarda) həvəsləndirmək lazımdır.

### *Müəllim-şagird, müəllim-valideyn əməkdaşlığı*

Müəllim-şagird münasibətlərinin yaxşı olması təlimdə keyfiyyətli nəticələrin əldə olunması ilə ölçülür. Bu baxımdan aşağıdakı məsələlərə diqqət yetirmək vacibdir:

- ✓ Əməkdaşlığın əsasında bu pozitiv münasibətlərin saxlanması;

✓ Şagirdin bütün şəxsiyyət keyfiyyətlərinin nəzərə alınması;

✓ Müəllim şagird arasında mənəvi əlaqənin olması (bu mənəvi əlaqə emosional, qiymətləndirici və iradi xarakter daşıyır. Müəllim ötürdüyü məlumatın şagird tərəfindən qəbul edilməsinə, özününküləşdirməsinə şərait yaratmalıdır);

✓ Müəllim bütün hallarda, xüsusən "müəllim-şagird" münasibətlərinin qurulmasında nəzakətli olmalı, etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəbli davranmalıdır.

Müəllim-şagird münasibətlərində yaranan problemləri aradan qaldırmaq üçün:

✓ Müəllim yaxşı psixoloq olmağı bacarmalıdır.

✓ Müəllimlər təkcə elmi cəhətdən deyil, etika, estetika baxımından da yüksək mədəniyyətə malik olmalıdır.

✓ Müəllim hər bir şəxsə fərdi yanaşmağı bacarmalıdır. Çünki hər bir uşağın fərdi xarakterik xüsusiyyəti var və hər müəllim də ona uyğun davranmalıdır.

✓ Müəllim valideynlə sıx ünsiyyətdə olmalıdır.

✓ Uşaqlar da müəllimlərinə qarşı hörmətlə, ehtiramla yanaşmalıdır. Qarşılıqlı şəkildə anlaşma yaratmağa çalışmalıdırlar.

✓ Şagirdlər müəllimi təkcə pedaqoq kimi görməməlidir, müəllimi özlərinə dost bilməli, problemlərini, yoldaşları arasında olan konfiliktlərini onunla həll etməyə çalışmalıdırlar.

Müəllim təkcə şagirdlərlə deyil, həm də onların valideynləri ilə işləyir. İl ərzində məktəbdə bir neçə dəfə valideyn iclasları keçirilir. Valideynlərin tədrisə cəlb edilməsinin üstünlükləri:

✓ müəllim-şagird münasibətləri yaxşılaşır;

✓ valideynlər uşaqların müxtəlif yollarla öyrəndiklərinin şahidi ola bilirlər;

✓ valideynlər müəllimlərin müsbət davranış qaydalarını necə modelləşdirdiklərini müşahidə edirlər;

✓ evlə məktəb arasında qeyri-formal, davamlı münasibətlər yaranır;

✓ valideynlər öz övladlarını məktəb mühitində gördükləri üçün onların bacarıqlarını daha yaxşı anlaya bilirlər;

✓ müəllimlər uşaqların ev həyatına daha dərindən bələd olurlar.

## *Şagirdlər arasında əməkdaşlıq*

Tədris prosesində müəllimə kömək etmək üçün fəaliyyətlərin həyata keçirilməsində və şagirdlər arasında əməkdaşlığa yol açmaqda aşağıdakı üsullar tez-tez istifadə olunur:

- ✓ bəzi sinif vəzifələrini sinfin lideri olaraq şagirdlərin öhdəsinə buraxmaq;
- ✓ həmyaşıdlarından öyrənmə;
- ✓ köməkçilər seçmək.

Bu vəzifələr müntəzəm olaraq dəyişdirilə bilər ki, bütün şagirdlər müəyyən qabiliyyət və bacarıqlarından asılı olaraq tədris prosesində lazımi rol oynasınlar. Hər bir vəzifə üçün məsul olan şagirdin adı göstərilən *iş qrafikinin tərtibi* də bu işdə səmərəlidir. Seçilmiş şagirdlərin vəzifələri:

- ➢ qruplara rəhbərlik etmək və sinif yoldaşlarına kömək etmək;
- ➢ bütün qrup üzvlərinin təyin olunmuş fəaliyyətdə iştirakını təmin etmək;
- ➢ təhqirdən çəkindirmək və şagirdlər arasında ahəngdar münasibətləri qorumağa kömək etmək.

Seçilmiş şagirdlər müəllim tərəfindən istiqamətləndirilməli və idarə olunmalıdırlar. Bu işlər şagirdlər arasında əməkdaşlığa yol açır, qrup üzvlərinin birlikdə öyrənmələrinə imkan verir, öz nəticələrini sizinlə, digər qruplarla və sinifdəki başqa səviyyəyə aid şagirlərlə bölüşmələrini təmin etmək məqsədi daşıyır.

## İstifadə edilmiş ədəbiyyat


1. Mutagrade teaching classroom management and organisation. The Commonwealth of Learning. October, 2000.
2. A handbook for teachers of Multigrade classes (Volume 1). UNESCO, 2001.
3. A handbook for teachers of Multigrade classes (Volume 2). UNESCO, 2001.
4. Practical tips for teaching Multigrade classes. UNESCO, 2015.
5. http://www.tipii.edu.az/az/articles